# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

29 iyul 2026-cı il, çərşənbə
№ 132 (7199)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan-Çin əməkdaşlığının yeni səhifəsi...



Bax səh. 3

## Strateji hədəflər reallığa çevrilir

Bax səh. 2

## Geosiyasi qeyri-müəyyənlik neft-qaz qiymətlərinə necə təsir edir?



Bax səh. 5

## Qonşuluq siyasətində media qarşıdurması: İranın qərəzli addımı

Bax səh. 5

## ABŞ-dan çağırış: "907-ci düzəliş" tarixin arxivinə qovuşmalıdır



Bax səh. 4

## Son qoyulmalıdır!

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarovanın Qarabağ bölgəsi və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə bağlı səsləndirdiyi fikirlərə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, XİN-in mətbuat katibi Ayxan Hacızadə yerli medianın bu barədə sualını cavablayıb.

Qeyd olunub ki, Mariya Zaxarovanın keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı növbəti dəfə səsləndirdiyi fikirlər reallığın təhrif olunmasıdır.

Qarabağ bölgəsi beynəlxalq ictimaiyyət, o cümlədən Rusiya Federasiyası tərəfindən hər zaman Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınıb. Bu səbəbdən, KTMT mexanizmlərinin 30 il ərzində Ermənistanın işğalı altında saxlanmış Azərbaycanın suveren ərazilərinə münasibətdə tətbiq edilməsi məsələsini davamlı şəkildə gündəmdə saxlamaq cəhdi və bunun Qarabağ bölgəsinin Ermənistan tərəfindən tanınıb-tanınmaması ilə əlaqələndirilməsi Rusiya tərəfinin Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı rəsmi mövqeyinə zidd olmaqla yanaşı, tamamilə əsassızdır.

Vurğulanıb ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini...

Bax səh. 4

## BMT-nin Baş katibi Kipr adasında...

BMT-nin Baş katibi Antonio Quterreş rəhbərlik etdiyi təşkilatın onilliklər boyu davam edən Kipr probleminin davamlı həllinə nail olmaq öhdəliyini bir daha təsdiqləmək üçün iyulun 28-də adaya səfərə gəlib. A. Quterreş "X" sosial media platformasında bildirib: "Mən Kipr məsələsinin hərtərəfli və davamlı həlli axtarışında adanın icmalarına dəstək verməyə sadiq olduğumu bildirmək üçün Kiprə gəlmişəm. BMT tərəfləri sülhə məcbur edə bilməz. Yalnız kiprlilər öz liderləri vasitəsilə sülhü qura bilərlər". Hərtərəfli həll yoluna nail olmaq üçün indiyədək BMT-nin diplomatik səylərinə baxmayaraq, Kipr türkləri və yunan kiprliləri arasında onilliklərdir davam edən mübahisə həll olunmamış qalır.

Antonio Quterreşin Şimali Kiprin Prezidenti Tufan Erhürman və Kipr prezidenti Nikos Xristodulidis ilə ayrı-ayrılıqda görüşləri planlaşdırılıb. Qeyd edilib ki, BMT-nin Baş katibi çərşənbə günü liderləri Lefkoşadakı bufer zonasında BMT-nin Xoşməramlı Missiyasının ofisində bir araya gətirəcək. Üçtərəfli görüşdən sonra Baş katibin mətbuat konfransı keçirməsi planlaşdırılır. Məlumatda həmçinin vurğulanıb ki, bu səfər vəzifədə olan BMT Baş katibinin təxminən 16 ildən sonra Kiprə ilk səfəri kimi tarixə düşəcək.

Səfər zamanı Quterreşi BMT-nin Siyasi və Sülh Quruculuğu Məsələləri üzrə...

Bax səh. 6

## Roma danışıqları...

### İsrail-Livan sülh prosesində irəliləyişlər müşahidə olunur



Bax səh. 6

## Dron müharibələri

### Yaşadığımız əsrin döyüş meydanı necə dəyişir?



Bax səh. 7

# Moskvadan zəng...



**İyulun 28-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

**Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, ikitərəfli və beynəlxalq gündəliyə dair aktual məsələləri müzakirə edən liderlər Azərbaycan-Rusiya əlaqələrinin konstruktiv xarakter daşıdığını, hökumətlərin və müvafiq strukturların xətti ilə fəal dialoqun aparıldığını qeyd ediblər.**

**Faydalı əməkdaşlığın daha da genişlənməsinə dair qarşılıqlı maraq təsdiqlənib.**

# Strateji hədəflər reallığa çevrilir

## Müəyyənləşdirilən kurs, səsləndirilən mesajlar, əldə olunan nəticələr: Azərbaycanın 2026-cı ilin ilk yarısına baxış

## Prezident İlham Əliyevin bu ilin 6 ayında səsləndirdiyi prioritetlər...

2026-cı ilin ilk altı ayı Azərbaycanın siyasi, iqtisadi və xarici siyasət gündəliyində mühüm hadisələr, strateji qərarlar və beynəlxalq miqyasda artan fəallıqla yadda qaldı. Qlobal geosiyasi gərginliyin, iqtisadi çağırışların və yeni təhlükəsizlik risklərinin müşahidə olunduğu bir dövrdə Azərbaycan milli maraqlara söykənən, uzunmüddətli inkişaf hədəflərinə hesablanmış siyasətini ardıcıl şəkildə davam etdirdi. Dövlətin qarşıya qoyduğu prioritetlər - dayanıqlı sülhün təmin olunması, regional təhlükəsizlik mühitinin möhkəmləndirilməsi, iqtisadi inkişafın sürətləndirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində atılan addımlar ilk yarımilin əsas siyasi xəttini təşkil etdi.

2020-ci ildə Vətən müharibəsində əldə edilən tarixi Qələbədən sonra yaranmış yeni geosiyasi reallıqlar fonunda Azərbaycanın əsas məqsədlərindən biri Cənubi Qafqazda davamlı sülhün bərqərar olması, dövlətlər arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin formalaşdırılması və regionun əməkdaşlıq məkanına çevrilməsidir. Son altı ay ərzində bu istiqamətdə həyata keçirilən diplomatik təşəbbüslər, beynəlxalq platformalarda irəli sürülən çağırışlar və aparılan danışıqlar Azərbaycanın sülh gündəliyinə sadiqliyini bir daha nümayiş etdirdi.

İlin əvvəlində Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirdi ki, keçən 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və artıq biz bir neçə aydır ki, sülh şəraitində yaşayırıq. Sülh şəraitində yaşamaq nə deməkdir, bunu öyrənirik. Çünki müstəqillik əldə ediləndən sonra, hətta ondan da əvvəl Azərbaycan xalqı və dövləti müharibə şəraitində yaşamışdır: "Biz artıq cəmi beş ay bu şəraitdə yaşamağımıza baxmayaraq, bunun bəhrəsini görürük - həm siyasi, həm iqtisadi müstəvidə. Cəmiyyətdə mövcud olan xoş əhvali-ruhiyyə, sabitliyə və təhlükəsizliyə olan inamın artması, bütün bu amillər, əlbəttə, bizə imkan verir ki, uğurla irəliyə addımlayaq və ölkə qarşısında duran bütün vəzifələri bundan sonra da həll edək".

Bəli, son 6 ayda bu istiqamətdə mühüm addımlar atılıb. Azərbaycan artıq bölgədə fərqli münasibətlər sisteminin oturuşması üçün bir sıra məsələlərə imza atıb:

- Bölgənin transkontinental münasibətlər sisteminə daxil olması, orada özünün potensialına uyğun yer tapması;
- Ermənistana enerji məhsullarının ixracı və ərazimizdən tranzit olaraq Ermənistana yüklərin daşınmasına icazə verilməsi;
- Zəngəzur dəhlizinin (TRIPP) konturlarının daha aydın sezilməsi, praktik perspektivin inkişafının verəcəyi müsbət dividendlərin ştrixlərinin anlaşılması...

Bütün bunlar kompleks halda Bakının son 6 ildə yürütdüyü sülh prosesinin ortaya çıxardığı mənzərədir.

# Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələ: Strateji tərəfdaşlıqdan qlobal əməkdaşlığa

Azərbaycanın milli maraqlara əsaslanan xarici siyasəti beynəlxalq münasibətlər sistemində milli maraqlara əsaslanan və praqmatik əməkdaşlıq modelini gücləndirməkdə davam edir. Bu baxımdan ABŞ ilə əlaqələrin son dövrdə yeni mərhələyə qədəm qoyması ölkəmizin qlobal mövqeyinin möhkəmlənməsinə mühüm töhfə verib. 2025-ci ildən etibarən Vaşinqtonla siyasi dialoqun intensivləşməsi, yüksək səviyyəli qarşılıqlı təmasların artması və strateji əməkdaşlığın genişlənməsi ikitərəfli münasibətlərə yeni dinamika qazandırıb.

2025-ci ilin avqustunda keçirilən üçtərəfli Vaşinqton sammiti regionda sabitliyin və əməkdaşlığın təşviqi baxımından mühüm platformaya çevrildi. Bunun ardınca 2026-cı ilin əvvəlində imzalanan Strateji Tərəfdaşlıq haqqında Xartiya isə Azərbaycan-ABŞ münasibətlərində yeni eranın əsasını qoydu. Sənəd siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya layihələri və regional təhlükəsizlik sahələrində qarşılıqlı fəaliyyətin daha da dərinləşdirilməsini nəzərdə tutur. Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdə etibarlı və məsuliyyətli tərəfdaş kimi nüfuzunun daha da artdığını, ölkənin qlobal proseslərdə rolunun gücləndiyini nümayiş etdirir. Bu isə ilin əvvəlində verilən siyasi mesajların çevik şəkildə həyata keçməsinin praktiki nəticələri idi. Belə ki, ilin əvvəlində yerli televiziyalara müsahibəsində Prezident İlham Əliyev bildirmişdi ki, Azərbaycan kimi bölgədə güclü potensialı və nüfuz dairəsi olan ölkə ilə əməkdaşlıq Amerika Birləşmiş Ştatları üçün də önəmlidir: "Bu gün çox fəal diplomatik hərəkət var. Azərbaycanla Amerika arasındakı əlaqələr çox praktik və nəticəyə hesablanmış istiqamətdə cərəyan edir. Oktyabr ayından bu yana mənim tərəfimdən Amerikaya nazirlərdən və özəl sektor nümayəndələrindən, digər məsul şəxslərdən ibarət dörd rəsmi heyət ezam edilmişdir. Demək olar ki, əsas istiqamətlər üzrə strateji xartiyanın hazırlanması və qarşılıqlı sərmayə qoyuluşu, onun təşkili və münasibətlərimizin iqtisadiyyat, ticarət, nəqliyyat, hərbi-sənaye istiqamətlərinin əhatə edilməsi məsələləri müzakirə olunur. Yəni ümidlərimiz böyükdür, nəticələr də kifayət qədər təsirlidir".

Fevralın 10-da ABŞ-ın vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfəri çərçivəsində imzalanan Strateji Tərəfdaşlıq haqqında Xartiya iki ölkə arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilir. Bu isə 2026-cı ilin əvvəlində səsləndirilən hədəflərə doğru mühüm bir addımdır. Xartiya özündə bir sıra mühüm məqamları ehtiva edir - diplomatik əlaqələrin genişlənməsi, strateji iqtisadi münasibətlər sisteminin formalaşdırılması, müasir çağırışlara əsasən dialoqun daha da gücləndirilməsi ilə yanaşı, sənəd həm də Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi reallıqların beynəlxalq müstəvidə qəbulunun göstəricisi sayıla bilər. Qarabağ müharibəsində əldə olunan zəfərdən sonra regionda yaranmış geosiyasi vəziyyət Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpası ilə xarakterizə olunur. Xartiyanın preambulasında əksini tapan müddəalar Vaşinqtonun bu reallığı nəzərə aldığını və Bakı ilə münasibətləri yeni status və yeni əməkdaşlıq müstəvilərində inkişaf etdirmək niyyətində olduğunu göstərir. Belə ki, regional bağlantılar, iqtisadi sərmayə və təhlükəsizlik əməkdaşlığı da daxil olmaqla, qarşılıqlı maraq və ortaq fayda doğuran sahələrdə strateji tərəfdaşlıqların əhəmiyyəti hər iki ölkə tərəfindən təsdiqlənib. Eləcə də diplomatik, iqtisadi, enerji, texnoloji və təhlükəsizlik sahələri də daxil olmaqla, qarşılıqlı maraq doğuran məsələlərdə münasibətləri gücləndirmək üçün birgə niyyətlər, strateji tərəfdaşlığın və genişləndirilmiş əməkdaşlığın planlaşdırılması və həyata keçirilməsinə yalnız dövlət qurumlarının deyil, həm də hər iki ölkənin özəl sektorlarının cəlb edilməsinin mühüm əhəmiyyəti vurğulanıb. Bütün bunlar kompleks şəkildə Azərbaycan-ABŞ münasibətlərinin yeni keyfiyyət mərhələsidir. Başqa sözlə, Bakının strateji tərəfdaş olaraq rəsmən müqavilə bağladığı ABŞ ilə 2026-cı ildən sonrakı əlaqələri artıq yeni status qazanıb.

# Güclü dövlət konsepsiyası praktik siyasətdə: Azərbaycanın son 6 ayda təhlükəsizlik və müdafiə istiqamətində atdığı addımlar

İlin əvvəlində Prezident İlham Əliyevin "bugünkü dünya belədir: kim güclüdür, o da haqlıdır" fikri son illərdə beynəlxalq münasibətlər sistemində baş verən geosiyasi dəyişikliklərin mahiyyətini ifadə edir. Sitat: "Çünki bilirəm və görürəm, dünyadakı proseslər o istiqamətdə gedir ki, hər bir ölkə ilk növbədə öz hərbi potensialını gücləndirməlidir, təhlükəsizliyini gücləndirməlidir. Hətta Yeni il bayramı ilə əlaqədar Azərbaycan xalqına təbrikimdə də demişdim, bugünkü dünya belədir: kim güclüdür, o da haqlıdır. Mənim sözlərim indi demək olar ki, həftəlik formatda bu və ya digər bölgələrdə təsdiqlənir".

Son altı ay ərzində Azərbaycanın həyata keçirdiyi siyasət də məhz bu yanaşmanın praktik müstəvidə davamı kimi qiymətləndirilə bilər. 2026-cı ilin ilk yarısında ölkənin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri olub. Müdafiə sənayesinin inkişafı, Silahlı Qüvvələrin müasir silah və texnologiyalarla təchiz edilməsi, peşəkar kadr hazırlığının genişləndirilməsi və döyüş hazırlığının artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Müxtəlif qoşun növlərinin iştirakı ilə keçirilən təlimlər ordunun çevikliyinin və operativ imkanlarının yüksəldilməsinə xidmət edib.

Eyni zamanda, Azərbaycanın beynəlxalq hərbi əməkdaşlıq əlaqələri də genişlənib. Strateji tərəfdaş ölkələrlə birgə təlimlərin keçirilməsi, müdafiə sənayesi sahəsində yeni əməkdaşlıq layihələrinin reallaşdırılması və təhlükəsizlik məsələləri üzrə intensiv siyasi dialoq ölkənin regional təhlükəsizlik sistemində rolunu daha da möhkəmləndirib.

Sərhəd təhlükəsizliyinin gücləndirilməsi, azad edilmiş ərazilərdə hərbi və mühəndis infrastrukturunun inkişaf etdirilməsi, müasir müşahidə və nəzarət sistemlərinin tətbiqi də görülən işlərin mühüm istiqamətlərindən olub. Bu addımlar yalnız hərbi potensialın artırılmasına deyil, həm də uzunmüddətli sabitliyin və milli təhlükəsizliyin təmin edilməsinə xidmət edir.

Qlobal təhlükəsizlik mühitinin getdikcə mürəkkəbləşdiyi bir dövrdə Azərbaycanın son altı ayda həyata keçirdiyi tədbirlər göstərir ki, dövlət təhlükəsizlik məsələlərini strateji prioritet kimi müəyyənləşdirib. Prezident İlham Əliyevin səsləndirdiyi yanaşma fonunda atılan addımlar ölkənin müdafiə imkanlarının gücləndirilməsinə, regional çəkisinin artmasına və milli maraqların etibarlı şəkildə qorunmasına yönəlmiş ardıcıl siyasətin davamı kimi qiymətləndirilə bilər. Bu siyasət Azərbaycanın dəyişən beynəlxalq nizamda güclü, etibarlı və öz təhlükəsizliyini müstəqil şəkildə təmin edən dövlət kimi mövqeyini daha da möhkəmləndirir. Azərbaycan bu gün bölgədə orta güc statusunda aparıcı söz sahibidir - istər hərbi gücünə, istər iqtisadi dayanıqlığına, istərsə də siyasi nüfuzuna görə, coğrafiyamızın əsas dayağıdır.

# Azərbaycanın yeni inkişaf prioriteti - rəqəmsal inkişafın yol xəritəsi

Müasir çağırışların ən mühüm predmetinə çevrilən rəqəmsal gələcək reallığı Azərbaycanın da əsas aparıcı hədəflərindən biridir. Azərbaycan rəqəmsal inkişafın yeni mərhələsinə daxil olub. Prezident ilin əvvəlində bildirmişdi ki,



"Azərbaycanın hədəflərindən biri də regional süni zəka qovşağına, IT mərkəzinə çevrilməkdir və hesab edirəm ki, bizim buna nail olmaq üçün potensialımız var. Biz indi tərəfdaşlarımızla məlumat mərkəzlərinin yaradılması üzərində çalışırıq".

Dövlət başçısı vurğulamışdı ki, "Kibertəhlükəsizlik mərkəzinin yaradılması, mütəxəssislərimizin təlimi ilə bağlı planlarımız və artıq icra olunmuş layihələrimiz var - biz bir çox mütəxəssislərimizi xaricə təlimlərə göndəririk və eyni zamanda, Azərbaycanda təlimlər təşkil edirik - hədəfimiz, bağlılıqla yanaşı, süni zəka və IT üçün bir haba çevrilməkdir. Potensial mövcuddur. Güclü siyasi iradə mövcuddur".

Bəli, yeni innovasiya cəmiyyətində öz layiqli yerini tutmaq üçün ölkəmiz mühüm dövlət konseptini - "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya"nı təsdiq edib və sənədin icrası istiqamətində çoxistiqamətli tədbirlər həyata keçirilməkdədir. Strategiya rəqəmsal transformasiyanın strateji əhəmiyyətini nəzərə alaraq dövlət idarəetməsi, infrastruktur, innovasiya ekosistemi və kibertəhlükəsizlik sahələrində prioritet tədbirlər müəyyən edir. Bu il iyunun 29-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasında vurğulandığı kimi, qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən yol xəritəsi müəyyən olunub və yeni yaradılan şuranın əsas vəzifəsi bu istiqamətdə əlaqələndirici rol oynamaqdır. Şura müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir. "Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda, ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır".

Dövlət başçısının da bildirdiyi kimi, qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün Azərbaycanda güclü rəqəmsal arxitektura mövcuddur. Son illər ərzində "Elektron hökumət"in formalaşması, dövlət orqanlarının informasiya sistemləri arasında xüsusi infrastruktur vasitəsilə informasiya mübadiləsinin aparılması, "Elektron hökumət"in fəaliyyəti üçün vacib əhəmiyyət kəsb edən dövlət informasiya sistemləri və ehtiyatlarının yaradılması istiqamətində mühüm işlər görülüb, müasir informasiya-kommunikasiya texnologiyalarının, telekommunikasiya qurğularının və innovasiyaların geniş tətbiqi nəticəsində qabaqcıl texnoloji infrastruktur qurulub. "Mygov" platformasının xidmət dairəsi genişləndirilir, son üç ayda istifadəçilərin sayı 2,7 milyondan 3,5 milyona çatdırılıb. Dövlət idarəçiliyində rəqəmsallaşmanın genişləndirilməsi məqsədilə "Hökumət buludu" yaradılıb, dövlət informasiya sistemlərinin və elektron xidmətlərin vahid platforma üzərindən inteqrasiyası təmin edilib.

Azərbaycan neft-qaz bağlantıları sahələrində böyük təcrübəsindən istifadə edərək beynəlxalq şirkətlərlə olan əlaqələrin səmtini indi yeni texnoloji cəmiyyət quruculuğuna yönəldir, sərmayə tərəfdaşlıqları qurur. Bir çox ölkələrlə icra edilmiş nəhəng layihələrin davamı indi bilik, bacarıq, texniki keyfiyyətlər sahələrini əhatə edir və geniş beynəlxalq əlaqələrin qurulması nəzərdə tutulur. Bu sərmayə əməkdaşlığı nəqliyyat, energetika dəhlizləri fonunda regional fiber-optik dəhlizlərin yaradılmasını təmin edir.

Eyni zamanda, ölkəmizin coğrafi vəziyyətinin əlverişliliyi də rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması istiqamətində töhfəverici rol oynayır. Ölkəmizin Asiya ilə Avropa arasında yerləşməsi, Şimal-Cənub dəhlizi üzərində qərar tutması və yaradılmış logistika infrastrukturu texnoloji tranzitə keçiddə üstünlüyü təmin edir.

Ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması məqsədilə ən qabaqcıl rəqəmsal şirkətlərlə təcrübə mübadilələri həyata keçirilir, rəqəmsal sənayeyə sərmayələr yatırılır. Bu məqsədlə ali təhsil müəssisələrində rəqəmsal bacarıqlara və qlobal səviyyədə tanınan rəqəmsal yönümlü sertifikatlaşdırma standartlarına əsaslanan təhsil proqramlarının hazırlanması, İKT üzrə karyera quran kadrları həvəsləndirmək üçün illik İKT təqaüd proqramlarının təsis edilməsi, rəqəmsallaşma istiqaməti üzrə elmi tədqiqat işlərinin doktorantura səviyyəsində dəstəklənməsi üçün əhatəli tədbirlər həyata keçiriləcək. "Yeni Nəsil Texnologiyalar Mərkəzi" və "Rəqəmsal həllər və xidmətlər platforması" yaradılacaq, "Rəqəmsal İqtisadiyyatın İnkişafına Dəstək Proqramı" hazırlanacaq.

Süni intellekt (Sİ) sahəsində fəaliyyətin gücləndirilməsi üçün infrastrukturun və insan resurslarının inkişafı nəzərdə tutulur. Məqsəd Sİ-nin bütün sahələrdə (təhsil, səhiyyə, nəqliyyat və s.) tətbiqini genişləndirməkdir. Sİ layihələrinə dövlət investisiyasının stimullaşdırılması üçün vergi, gömrük və sosial sığorta güzəştləri tətbiq olunacaq. Bununla yanaşı, yüksək hesablama güclərinə malik superkompüter mərkəzlərinin yaradılması nəzərdə tutulur (məsələn, milli GPU əsaslı Mərkəz). Dövlət vəsaiti ilə bu infrastruktur təmin ediləcək, startaplar və tədqiqatçılar üçün istifadəyə kvota ayrılacaq. Rəqəmsal İnkişaf Şurasının Sədri Mehriban Əliyevanın bəyan etdiyi kimi, "Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik".

*Pərviz SADAYOĞLU*

# Azərbaycan-Çin əməkdaşlığının yeni səhifəsi...



**Çoxvektorlu səciyyə daşıyan Azərbaycan-Çin əlaqələri hazırda özünün yüksəliş dövrünü yaşayır. İki ölkə arasında siyasi dialoq kifayət qədər yüksək dinamikaya malikdir. Liderlər bir-birinə dərin hörmət bəsləyirlər və bu kimi amillərə adekvat olaraq dost ölkələr arasında strateji tərəfdaşlığa aid mühüm sənədlər imzalanıb. Gələcəkdə isə Azərbaycanla Çin arasında əməkdaşlığın yeni səhifəsi açılacaq. Söhbət iki dost ölkənin müasir dövrün əsas çağırışlarından birinə çevrilən süni intellekt sahəsində birgə əməkdaşlıq qurulması perspektivlərindən gedir. Süni intellekt sahəsində Çin-Azərbaycan əməkdaşlığı böyük potensiala malikdir. Bu barədə Çin Xalq Respublikasının Azərbaycandakı səfiri Lu Meyin "İnnovativ inkişaf və hamı üçün fayda: 2026-cı il Süni İntellekt üzrə Ümumdünya Konfransı qlobal süni intellekt idarəetməsində yeni fəsil açır" adlı məqaləsində bildirilib.**

## Müasir dövrün əsas trendi

Çox doğru olaraq süni intellekt müasir dövrün əsas trendi kimi səciyyələndirlir. Getdikcə daha çox şəkildə aydın olur ki, həyatın hansısa bir sahəsini, ümumiyyətlə gələcəyi süni intellektsiz təsəvvür etmək mümkün deyil. Hazırda qlobal miqyasda süni intellektlə bağlı əsas çağırışlar aşağıdakılardan ibarətdir:

Məlumatların dəqiqliyi: süni intellekt sistemləri vasitəsilə həyata keçirilən qərarvermə proseslərində obyektivliyin təmin edilməsi üçün dəqiq və mötəbər məlumatların toplanılması, eləcə də məlumatların düzgün emalı və təmizlənməsi zəruridir;

-Kibertəhlükəsizlik riskləri: süni intellekt sistemlərinin kibertəhlükələrə qarşı dayanıqlılığını artırmaq üçün qabaqcıl beynəlxalq təcrübələrdən faydalanmaq mümkündür;

-Yüksək enerji xərcləri: Ayrı-ayrı ölkələrin yaşıl enerjiyə keçid etmələri göstərir ki, bu yanaşma həm iqtisadi, həm də ekoloji baxımdan faydalıdır;

-Mütəxəssis çatışmazlığı: rəqəmsal təhsil və təlim proqramlarının genişləndirilməsi;

-Qərarvermə proseslərində aşkarlıq: süni intellekt sistemləri vasitəsilə həyata keçirilən qərarvermə proseslərində tətbiq edilən metodologiyaların şəffaflığı və aşkarlığı təmin edilməlidir;

-Məlumatların mühafizəsi: dövlət sirrinin və əldə edilməsi məhdudlaşdırılan digər məlumatların mühafizəsi təmin edilməli və konfidensiallığı qorunmalıdır;

-Hesabatlılıq: qurumlar yaratdıqları və istifadə etdikləri süni intellekt sistemlərinə görə cavabdeh olmalı və məsuliyyət daşımalıdırlar.

2030-cu ildə süni intellektin 326 milyon işə təsir göstərəcəyi təxmin edilir. Araşdırmalara görə, 2030-cu ildə süni intellektin inkişafı və tətbiqinin sürətləndirilməsi nəticəsində qlobal ÜDM 14 faiz artacaq ki, bu da əlavə 15,7 trilyon dollar deməkdir.

Kanada dünyada süni intellekt üzrə strategiyanı ilk hazırlayan dövlətlərdən biri olaraq, "Pan-Canadian AI Strategy"ni 2017-ci ildə təqdim edib. Həmin strategiyanın əsas məqsədi Kanadanın mövqeyini qlobal süni intellekt lideri olaraq möhkəmləndirmək, bu sahədə innovasiyaları artırmaq və süni intellektin cəmiyyətə müsbət təsirlərini təşviq etməkdir.

Amerika Birləşmiş Ştatları "American AI Initiative" strategiyası vasitəsilə müvafiq sahədə tədqiqat və innovasiyaları maliyyələşdirir.

"Avropa Süni İntellekt Strategiyası"nda süni intellektin tətbiqi zamanı etik prinsiplər və sosial dəyərlər ön plana çıxarılır. Bu sahədə Avropa İttifaqı kiçik sahibkarlara maliyyə dəstəyi və tədqiqat proqramlarına ciddi investisiyalar da ayırır.

Eyni zamanda, Yaponiya "Cəmiyyət 5.0" konsepsiyası çərçivəsində texnologiyanın insan rifahına xidmət etməsini prioritet hesab edir və orada sosial problemlərin həllində texnologiyadan istifadə digər ölkələrin strategiyalarından fərqlənir.

## Dünyada birlikdə ədalətli və rasional qlobal süni intellekt idarəetmə sistemi qurulmalıdır

Çin Xalq Respublikasının Azərbaycandakı səfiri Lu Meyin bəhs olunan məqaləsində indiki mühüm dövrdə Çinin 2026-cı il 17-20 iyul tarixlərində Şanxayda Süni İntellekt üzrə Ümumdünya Konfransına və Süni İntellektin Qlobal İdarəedilməsi üzrə Yüksək Səviyyəli Konfransa ev sahibliyinə diqqət çəkilib. Azərbaycanın da yüksəksəviyyəli nümayəndə heyəti ilə qatıldığı konfransda süni intellektin faydalı və inklüziv inkişafını qlobal miqyasda təşviq etməyin yolları müzakirə edilib. "İntellektual tərəfdaşlar - ortaq gələcək" devizi altında keçirilən tədbir çərçivəsində Çinin təşəbbüsü ilə süni intellekt üzrə əməkdaşlığa dair Ümumdünya Təşkilatının yaradılması ilə bağlı 29 dövlət tərəfindən Saziş imzalanıb.

Süni intellektlə əlaqədar aktual müzakirələrin aparıldığı konfransın Çində keçirlməsi təsadüfi deyil. Çin qarşısına süni intellekt sahəsində qlobal liderliyə nail olmaq hədəfi qoyub və bu hədəfə çatmaq üçün mühüm layihələr reallaşdırır. Çin hökuməti intellektual transformasiyanı fəal şəkildə qəbul edir və süni intellektin inkişafına ardıcıl olaraq böyük əhəmiyyət verir. 2016-cı ildə süni intellekt ölkənin 13-cü Beşillik İnkişaf Planına daxil edilib. 2017-ci ildə Çin hökuməti "Növbəti nəsil süni intellektin İnkişaf Planı"nı dərc edib. 2021-ci ildə 14-cü Beşillik Plan növbəti nəsil AI-ni elmi və texnoloji tədqiqatlar üçün yeddi prioritet sahələrdən biri kimi müəyyən edib. 2026-cı ildə 15-ci Beşillik Plan üçün təkliflər süni intellektin iqtisadiyyatın və cəmiyyətin bütün sahələrinə inteqrasiyası üçün "AI-nin inkişafı+" təşəbbüsünün hərtərəfli tətbiqini tələb edir.

Bununla yanaşı, Çin hökumətinin dəstəyi ilə ölkənin süni intellekt sənayesi texnoloji inkişafdan tətbiq liderliyinə tarixi bir keçid edərək bu sahədə dünyanın aparıcı güclərindən birinə çevrilib. 2025-ci ildə Çinin əsas süni intellekt sənayesinin həcmi 1,2 trilyon yuanı keçib, müəssisələrin sayı 6200-dən çoxdur və əhəmiyyətli artım nümayiş etdirilib. Çin qlobal süni intellekt patent müraciətlərinin 60 faizindən çoxuna malikdir. Ölkənin irimiqyaslı modelləri qlobal ümumi həcmin 40 faizindən çoxunu təşkil edir, "Qwen" və "DeepSeek" kimi modellər qlobal yükləmələrdə ardıcıl olaraq liderlər arasında yer alır. Əsas sənaye sahələrində süni intellektin nüfuzu 80 faizi keçib və əlaqəli sektorlarda artım templərinin 2026-cı ildə 30 faizdən yuxarı qalacağı gözlənilir. Təcəssüm olunmuş zəka sahəsində humanoid robotlar "fabriklərə və emalatxanalara" girməyə başlayır və 2026-cı ilin sonuna qədər illik istehsalın 100 min vahidi keçəcəyi gözlənilir.

2026-cı il Süni İntellekt üzrə Ümumdünya Konfransı ərəfəsində Çinin açıq mənbəli yeni nəsil modeli olan "Kimi K3" rəsmi olaraq təqdim edildi. Yeni versiya 2,8 trilyona qədər parametrə malikdir ki, bu da onu parametr sayına görə dünyada ən böyük açıq mənbəli modelə çevirir.

Eyni zamanda, bu ölkənin dünyada süni intellektin inkişafına yanaşması fərqli baxış bucağından diqqət çəkir. Məlumdur ki, bəzi ölkələr süni intellekt sahəsində rəqib tanımaq istəmir. Çin isə burada qlobal həmrəylik mövqeyindən çıxış edir. Səfirin məqaləsində bildirildiyi kimi, Çin Xalq Respublikasının Sədri Si Cinpin konfransın açılış mərasimindəki əsas çıxışında bütün ölkələrin "İnsan amili ilk yerdədir, xeyirxahlıq üçün süni intellekt və tərəqqi" prinsipinə riayət etməli və birlikdə ədalətli və rasional qlobal süni intellekt idarəetmə sistemi qurmalı olduğunu vurğulayıb. "Süni intellektin inkişafı tək bir ölkənin səyi deyil, qlobal əməkdaşlığın simfoniyası olmalıdır. Biz bu nadir tarixi fürsətdən istifadə etməli və açıqlığı, əlçatanlığı, əməkdaşlığı və paylaşımı təşviq etməliyik", - deyə Çin lideri bildirib.

Qeyd edək ki, hazırda Çinin açıq genişmiqyaslı modellərinin qlobal yükləmə həcmi 10 milyard dəfəni keçərək dünyada birinci yerdədir. "DeepSeek" tərəfindən təqdim edilən Çinin açıq modelləri texnoloji əlçatanlığa və ümumi rifaha əhəmiyyətli dərəcədə töhfə verir.

Si Cinpin qlobal süni intellektin inkişafını daha da dəstəkləmək və bu sahədə potensialı artırmaq üçün konkret tədbirləri elan edib. Növbəti beş il ərzində Çin inkişaf etməkdə olan ölkələrə süni intellektlə bağlı kurslarda iştirak etmək üçün 5000 kvota təmin edəcək, ASEAN, Ərəb Liqası, Afrika İttifaqı, CELAC, Şanxay Əməkdaşlıq Təşkilatı və BRICS-dən olan tərəfdaşlarla süni intellekt tətbiqində beynəlxalq əməkdaşlıq mərkəzləri yaradacaq, həmçinin 30 ölkədə "Matszu" ağıllı meteoroloji erkən xəbərdarlıq sisteminin tətbiqini təşviq edəcək.

O cümlədən Çinin təşəbbüsü ilə süni intellekt üzrə əməkdaşlığa dair Ümumdünya Təşkilatının yaradılması AI-nin inkişafı tarixində mühüm mərhələdir. "Çin variantı" süni intellektin beynəlxalq idarəetməsində yeni fəsil açır. Çin ardıcıl olaraq süni intellekt sahəsində daha güclü beynəlxalq idarəetmə və əməkdaşlıq tərəfdarı qismində bu texnologiyanın bütün bəşəriyyətin rifahı üçün faydalı istifadəsini təmin edərək və AI-nin "varlı ölkələr və fərdlər üçün oyuna" çevrilməsinin qarşısını alaraq, beynəlxalq idarəetmənin və əməkdaşlığın gücləndirilməsini müdafiə edir. 2023-cü ildə Çinin Sədri Si Cinpin süni intellekt inkişafının insan mərkəzli konsepsiyasına, "xeyirxahlıq üçün zəka" prinsipinə və "qarşılıqlı hörmət, bərabərlik və ortaq fayda" normalarına riayət etməli olduğunu açıq şəkildə bildirərək vurğulayıb ki, "ölçüsündən, gücündən və ya sosial sistemindən asılı olmayaraq, bütün ölkələr süni intellektin inkişafı və istifadəsində bərabər hüquqa malik olmalıdır".

**Çin və Azərbaycan Qlobal Cənub ölkələri olaraq çoxtərəfliliyi dəstəkləmək, inkişaf etməkdə olan ölkələrin qanuni hüquq və mənafelərini qorumaq üçün ortaq öhdəliklərə malikdir. Tərəflər süni intellekt də daxil olmaqla, müxtəlif qlobal idarəetmə məsələlərində oxşar mövqelər nümayiş etdirir. Azərbaycan Çinin süni intellekt təşəbbüslərini fəal şəkildə dəstəkləyir, Pekinin təşəbbüsü ilə yaradılmış süni intellekt potensialının gücləndirilməsi üzrə beynəlxalq əməkdaşlıq üzrə Dostlar Qrupunda iştirak edir, müvafiq təlim və mübadilə fəaliyyətlərinə qatılmaq üçün nümayəndələrini dəfələrlə Çinə göndərib. Çin 2026-cı il Süni İntellekt üzrə Ümumdünya Konfransında təklif olunan əməkdaşlıq təşəbbüslərində Azərbaycanın iştirakına fəal şəkildə kömək edəcək**

## Azərbaycanın gündəliyinin əsas prioritetlərindən biri - süni intellekt

Müasir dövlət kimi inkişaf edən Azərbaycan da rəqəmsal idarəçilik modelinə keçidi özünün gündəliyinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. 2025-ci il 19 mart tarixində Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" sənədi təsdiqlənib. Bu sənəd ölkənin süni intellekt sahəsində inkişafını sürətləndirmək, rəqəmsal inkişafı dəstəkləmək və qlobal süni intellekt ekosistemində Azərbaycanın rolunu artırmaq məqsədi daşıyır. Strategiyanın əsas məqsədləri sırasında qeyd edilən sahədə innovasiya və rəqəmsal inkişafın təşviqi, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, süni intellekt əsaslı məlumat idarəetməsinin təşkili, ixtisaslı kadr hazırlığı, bilik və bacarıqların genişləndirilməsi, dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, məlumat təhlükəsizliyi və etik qaydalara əsaslanan idarəetmə mexanizmlərinin qurulması yer alır. Eyni zamanda, Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin fevral ayında keçirilən müşavirədə rəqəmsal inkişaf üçün yol xəritəsi rolunu oynayan mühüm qərarlar qəbul edilib. Həmin qərarlara uyğun olaraq, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026 - 2028-ci illər üçün Fəaliyyət Planı" təsdiqlənib. Rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində dövlət siyasətinin vahid yanaşma əsasında həyata keçirilməsi məqsədilə Rəqəmsal İnkişaf Şurası yaradılıb. Şuranın fəaliyyəti dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsinə, rəqəmsal transformasiyanın sürətləndirilməsinə və innovasiya əsaslı iqtisadi modelə keçidin təmin olunmasına mühüm töhfə verəcək. 29 iyun 2026-cı il tarixində Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib. İclasda Fəaliyyət Planının icra vəziyyəti, rəqəmsal inkişaf sahəsində qanunvericilik islahatları istiqamətində görülən işlər müzakirə olunub.

Fəaliyyət Planı sənədi ölkənin növbəti üç il üzrə rəqəmsal transformasiya və texnoloji inkişaf prioritetlərini müəyyən edir. Onun icrası üzrə bir sıra tədbirlər görülüb və proses davam etdirilir. Hazırda dövlət xidmətlərinin vətəndaşlar və biznes subyektləri üçün daha əlçatan olması məqsədilə "mygov" və "mygov biznes" platformaları üzərində iş aparılır. Dövlət qurumlarının xidmətləri mərhələli şəkildə vahid ekosistemə inteqrasiya edilir, rəqəmsal olmayan xidmətlərin rəqəmsallaşdırılması və proaktiv xidmətlərin payının artırılması istiqamətində addımlar atılır.

Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliyindən verilən məlumata görə, innovasiya ekosisteminin inkişafı, İKT ixracının artırılması və Azərbaycanın regional texnologiya mərkəzinə çevrilməsi də prioritetlər arasındadır. Bu məqsədlə texnoloji inkişafı dəstəkləyən və qanunvericilik bazasının təkmilləşdirilməsini nəzərdə tutan geniş islahat paketi hazırlanıb.

Süni intellektin dövlət idarəçiliyinə və ictimai xidmətlərə tətbiqi Fəaliyyət Planının əsas istiqamətlərindəndir. Bu sahədə yüksəksəviyyəli hesablama infrastrukturunun yaradılması və dövlət xidmətlərinin süni intellekt əsaslı həllərlə təkmilləşdirilməsi nəzərdə tutulur. "Qarşıya qoyulan strateji hədəflərin uğurlu icrası ölkəmizin texnoloji potensialının gücləndirilməsinə, rəqəmsal suverenliyinin möhkəmləndirilməsinə və rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasına mühüm töhfə verəcək", - deyə nazirliyin məlumatında vurğulanır.

## Süni intellekt sahəsində Çin-Azərbaycan əməkdaşlığı böyük potensiala malikdir

Səfirin məqaləsində vurğulanır ki, Çin və Azərbaycan Qlobal Cənub ölkələri olaraq çoxtərəfliliyi dəstəkləmək, inkişaf etməkdə olan ölkələrin qanuni hüquq və mənafelərini qorumaq üçün ortaq öhdəliklərə malikdir. Tərəflər süni intellekt də daxil olmaqla, müxtəlif qlobal idarəetmə məsələlərində oxşar mövqelər nümayiş etdirir. Azərbaycan Çinin süni intellekt təşəbbüslərini fəal şəkildə dəstəkləyir, Pekinin təşəbbüsü ilə yaradılmış süni intellekt potensialının gücləndirilməsi üzrə beynəlxalq əməkdaşlıq üzrə Dostlar Qrupunda iştirak edir, müvafiq təlim və mübadilə fəaliyyətlərinə qatılmaq üçün nümayəndələrini dəfələrlə Çinə göndərib. Çin 2026-cı il Süni İntellekt üzrə Ümumdünya Konfransında təklif olunan əməkdaşlıq təşəbbüslərində Azərbaycanın iştirakına fəal şəkildə kömək edəcək.

Məqalədə Azərbaycan hökumətinin iqtisadi və sosial inkişafın rəqəmsal transformasiyasına böyük əhəmiyyət verdiyinə xüsusi diqqət çəkilir. Çin və Azərbaycan arasında süni intellekt sahəsində əməkdaşlıq bir-birini tamamlayan üstünlüklərlə xarakterizə olunur və geniş perspektivlər təklif edir. Çinin Sədri Si Cinpin Prezident İlham Əliyevlə görüşündə qeyd etdiyi kimi, iki ölkə inkişaf və dirçəliş yolunda yoldaşdır. Çin süni intellekt sahəsində beynəlxalq əməkdaşlığı gücləndirmək naminə süni intellektin inkişafı sahəsindəki təcrübəsini bölüşməyə və birlikdə irəliləmək üçün Azərbaycanla işləməyə hazırdır. Süni intellekt sahəsində Çinlə əməkdaşlıq Azərbaycana bu sahədə hədəflərinə çatmaq üçün bir sıra üstünlüklər yaradır. Burada mütəxəssislərin hazırlanması, milli ekosistemin qurulması, yüksəksəviyyəli infrastruktur təminatı, süni intellektin iqtisadiyyatın müxtəlif sahələrinə tətbiqi kimi istiqamətləri vurğulamaq mümkündür.

*Mübariz ABDULLAYEV*

# Son qoyulmalıdır!

## M.Zaxarovanın keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı növbəti dəfə səsləndirdiyi fikirlər reallığın təhrif olunmasıdır



Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarovanın Qarabağ bölgəsi və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə bağlı səsləndirdiyi fikirlərə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, XİN-in mətbuat katibi Ayxan Hacızadə yerli medianın bu barədə sualını cavablayıb.

Qeyd olunub ki, Mariya Zaxarovanın keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı növbəti dəfə səsləndirdiyi fikirlər reallığın təhrif olunmasıdır.

Qarabağ bölgəsi beynəlxalq ictimaiyyət, o cümlədən Rusiya Federasiyası tərəfindən hər zaman Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınıb. Bu səbəbdən, KTMT mexanizmlərinin 30 il ərzində Ermənistanın işğalı altında saxlanmış Azərbaycanın suveren ərazilərinə münasibətdə tətbiq edilməsi məsələsini davamlı şəkildə gündəmdə saxlamaq cəhdi və bunun Qarabağ bölgəsinin Ermənistan tərəfindən tanınıb-tanınmaması ilə əlaqələndirilməsi Rusiya tərəfinin Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı rəsmi mövqeyinə zidd olmaqla yanaşı, tamamilə əsassızdır.

Vurğulanıb ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini beynəlxalq hüququn tələblərinə uyğun olaraq bərpa edib və bununla keçmiş münaqişə həll olunub. Bu çərçivədə, Rusiya-Ermənistan münasibətlərinə aid mövzuların Azərbaycanla əlaqəli şəkildə şərh edilməsi təcrübəsinə son qoyulmalıdır.

# ABŞ-dan çağırış: “907-ci düzəliş” tarixin arxivinə qovuşmalıdır

Son 30 ildə Azərbaycanla Amerika Birləşmiş Ştatları (ABŞ) arasında münasibətlər eyni bir xətt üzrə stabil şəkildə inkişaf etməyib. Respublikamız ABŞ-la bir çox sahələrdə qurulan əlaqələrə hər zaman sadiqlik nümayiş etdirsə də, qarşı tərəfdən bu cür ardıcıl yanaşma müşahidə edilməyib. Belə ki, Ağ Evdə ayrı-ayrı administrasiyalar dönəmində ölkəmizə qarşı qərəzli addımlar atılıb, erməni lobbisinin təsiri altında Konqresdə ikitərəfli münasibətlərin ruhuna uyğun gəlməyən qətnamələr qəbul olunub. 1992-ci ilin oktyabrında ABŞ-ın qanunverici orqanında “Azadlığa Dəstək Aktı”na bədnam “907-ci düzəliş”in qəbul edilməsi, eləcə də keçmiş Bayden-Blinken administrasiyasının davamlı olaraq anti-Azərbaycan mövqeyindən çıxış etməsi bunun əyani təsdiqidir.

Yeni administrasiya dönəmində isə vəziyyət köklü şəkildə dəyişib. ABŞ-ın yeni Prezidenti Donald Tramp Azərbaycana və onun Liderinə böyük hörmətlə yanaşır. Artıq ikitərəfli münasibətlər strateji tərfdaşlıq ruhunda inkişaf edir və bununla bağlı əvvəlcə Vaşinqtonda, daha sonara isə Bakıda müvafiq sənədlər imzalanıb.

Eləcə də ABŞ-ın qanunverici orqanında və digər dairələrində bədnam “907-ci düzəliş”in tamamilə ləğv edilməsinə çağırışlar artır. Bununla bağlı növbəti çağırış ABŞ Nümayəndələr Palatasının üzvü Abe Hamadenin xarici siyasət üzrə müşaviri Brayan Leybdən gəlib. O, həm KİV-də dərc olunan analitik yazısında, həm də “X” sosial şəbəkə hesabında etdiyi paylaşımında keçmiş administrasiyanın Azərbaycana qərəzli münasibətini tənqid etməklə yanaşı, “907-ci düzəliş”in birdəfəlik ləğvinə də çağırış edib.

## C.Bayden administrasiyasının yanlış siyasəti

“ABŞ-ın keçmiş Prezidenti Co Baydenin administrasiyası dörd il ərzində Azərbaycana münasibətdə yanlış siyasət yürüdüb, onun Cənubi Qafqazda strateji tərəfdaş, enerji resurslarının tədarükçüsü və mühüm nəqliyyat qovşağı kimi əhəmiyyətini lazımınca qiymətləndirməyib”.

Bu fikirləri Brayan Leyb “Townhall” nəşri üçün yazdığı məqaləsində bildirib. Onun qənaətinə görə, Bayden administrasiyası Azərbaycanı ABŞ-ın regiondakı ən mühüm tərəfdaşlarından biri kimi qəbul etmək əvəzinə, siyasi fikir ayrılıqlarının və köhnəlmiş yanaşmaların ABŞ siyasətini müəyyən etməsinə imkan verib.

B.Leyb bildirib ki, ABŞ və Azərbaycan arasında münasibətlər bu gün həmişə olduğundan daha möhkəmdir. Onun sözlərinə görə, bu, təkcə diplomatiyada deyil, həm də strateji əməkdaşlığın genişləndirilməsində, iqtisadi əlaqələrin möhkəmləndirilməsində və Cənubi Qafqazda sabitliyin hər iki ölkənin maraqlarına cavab verməsi ilə bağlı ümumi anlayışda özünü əks etdirir. Müəllif qeyd edib ki, ABŞ Prezidenti Donald Tramp Azərbaycanla münasibətlərə fərqli yanaşır. Onun fikrincə, ABŞ-ın xarici siyasəti aktuallığını itirmiş təsəvvürlərə əsaslanmaq əvəzinə, etibarlı tərəfdaşları təşviq etməli və ABŞ-ın strateji maraqlarını irəli sürməlidir.

Müəllif şimalda Rusiya, cənubda isə İranla həmsərhəd olan, eyni zamanda, Avropanı Cənubi Qafqaz və Mərkəzi Asiya ilə birləşdirən Azərbaycanın strateji coğrafi mövqeyinə diqqət yetirib. Leyb enerji təhlükəsizliyini əməkdaşlığın ən vacib istiqamətlərindən biri adlandırıb. O qeyd edib ki, Avropa Rusiya enerji resurslarına alternativ axtarmağa başlamazdan əvvəl Azərbaycan ixrac marşrutlarının şaxələndirilməsinə və regional infrastrukturun möhkəmləndirilməsinə əhəmiyyətli vəsait yatırıb.



B.Leyb həmçinin Azərbaycanın limanlara, dəmir və avtomobil yollarına, aviasiya və logistikaya qoyduğu irimiqyaslı investisiyalara da diqqət çəkib. Onun fikrincə, bu layihələr ölkəni Şərqlə Qərbi birləşdirən ən mühüm kommersiya qovşağına çevirir. Müəllifin fikrincə, bu, ABŞ biznesi üçün energetika, infrastruktur, texnologiya, nəqliyyat, kənd təsərrüfatı və kibertəhlükəsizlik sahələrində mühüm imkanlar açır.

Leyb ikitərəfli münasibətlərin inkişafını prezidentlər Donald Tramp və İlham Əliyevin yanaşmaları ilə də əlaqələndirib. O, hər iki lideri sülhün qorunub saxlanması üçün mühafizə olunan sərhədlərin, iqtisadi artımın, güclü milli rəhbərliyin və mürəkkəb məsələləri birbaşa həll etməyə hazırlığın zəruri olduğunu dərk edən sülh tərəfdarları adlandırıb. Müəllif ABŞ-ı Azərbaycanla strateji münasibətləri dərinləşdirməklə yanaşı, sülh prosesini dəstəkləməyə davam etməyə də çağırıb.

Məqalədə ifadə olunan fikirlərdən də göründüyü kimi, hazırda ABŞ-da Azərbaycanın siyasi çəkisi, sülhə sadiqliyi, eləcə də coğrafi yerləşməsi və iqtisadi potensialı, xüsusilə də zəngin enerji resursları ilə Cənubi Qafqazın aparıcı dövləti olduğu reallığı yüksək dəyərləndirilir. Dövlətlər arasında münasibətlər beynəlxalq hüquq və qarşılıqlı maraqlar əsasında tənzimlənməlidir. Azərbaycan beynəlxalq birliyin suveren aktorudur. Ölkəmiz heç bir güc mərkəzinin diqtəsi ilə oturub durmur, sırf milli maraqlara əsaslanan siyasət həyata keçirir. Təbii ki, böyüklüyündən, kiçikliyindən asılı olmayaraq digər dövlətlərin hüquq və maraqlarına hörmətlə yanaşmaq da Azərbaycanın siyasətinin prioritetləri sırasında yer alır. Ölkəmiz beynəlxalq prinsiplərə əsaslanan belə yanaşmanı həmçinin özünə münasibətdə görmək istəyirqar

Təəssüf ki, Ağ Evin bundan əvvəlki administrasiyası dönəmində Vaşinqtonun Azərbaycanla münasibətləri bu çərçivədən kənara çıxırdı. İkitərəfli əlaqələrdə geridönüş baş vermişdi. Təsadüfi deyildir ki, dövlətimizin başçısı əvvəlki administrasiya dövründəki dörd ili Azərbaycan - ABŞ münasibətləri kontekstində itirilmiş illər kimi qiymətləndirib. Çünki əfsuslar olsun ki, Bayden administrasiyası zamanı Amerika-Azərbaycan əlaqələri Azərbaycan-Ermənistan münasibətlərinin girovuna çevrilmişdi. Azərbaycan beynəlxalq hüquqdan kənar addım atmamışdı. Sadəcə 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında böyük zəfərlər qazanmaqla ərazi bütövlüyünü və suverenliyini təmin etmişdi.

Təcavüzkarın cəzalandırılması ABŞ kimi güc mərkəzi tərəfindən alqışlanmalı idi. Bəs bunun əvəzində biz Bayden-Blinken administrasiyasında hansı davranışları gördük? Sualın cavabı təəssüf doğurur. Erməni lobbisinin girovluğunda qalan qoca Baydenin komandası sözün əsl mənasında ikibaşlı oyun oynayırdı. Ağ Evdən Konqresə, Senata Azərbaycan əleyhinə qətnamələrin qəbul edilməsi ilə bağlı siyasi sifarişlər verilirdi. Qəbul olunan qətnamələrdə bir qayda olaraq Azərbaycan əsassız ittihamlara tuş gəlirdi. Məsələn, Azərbaycan ermənilərin Qarabağdan Ermənistana köç etmələrinə görə günahlandırılırdı. Halbuki bizim tərəfdən Qarabağın erməni əhalisinə hansısa bir təzyiq göstərilməmişdi. Onlar Ermənistana könüllü qaydada köç etmişdilər. Digər bir əsassız tələb Bakıda saxlanılan separatçıların azadlığa buraxılması ilə bağlı idi. Burada da Bayden administrasiyası yanlış mövqedə idi. Dövləti cinayətlər törətmiş, minlərlə insanın ölümünə, itkin düşməsinə rəvac vermiş separatçıların sərbəst buraxılması heç bir sağlam məntiqə sığmasa da, Bayden administrasiyası bunu Bakıdan tələb etməyə özündə cəsarət tapırdı. Beləliklə də, Azərbaycan-ABŞ münasibətlərində əvvəlki dövrlərdə əldə edilmiş nailiyyətlər Bayden administrasiyası dönəmində, əslində, dondurulmuş vəziyyətə salınmışdı.

## Artıq köhnəlmiş “907-ci düzəliş” Azərbaycan-ABŞ münasibətlərində mənfi rol oynayıb

Brayan Leyb “X” sosial şəbəkə hesabında etdiyi paylaşımda isə bədnam 907-ci düzəlişin birdəfəlik ləğv olunmasına çağırış edib. “1992-ci il “Azadlığa Dəstək Aktı”nın 907-ci maddəsi ləğv edilməli və Amerika qırıcı təyyarələri etibarlı və sübut olunmuş müttəfiqimiz Azərbaycana satılmalıdır”, - deyə onun paylaşımında vurğulanıb.

Bəli, Azərbaycan-ABŞ münasibətlərdə “qara səhifələrdən”, “itirilmiş illərdən” bəhs edərkən istər-istəməz, yada həm də “Azadlığa dəstək aktı”na bədnam “907-ci düzəliş” düşür. Konqres tərəfindən 1992-ci ildə qəbul edilmiş “Azadlığa dəstək aktı” qanunu sosialist sistemin dağılmasından sonra öz müstəqilliyini elan etmiş dövlətlərə ABŞ tərəfindən yardımın göstərilməsini ehtiva edib. Lakin 1992-ci ilin oktyabr ayında ABŞ-da erməni lobbisinin təsiri altında qəbul olunan “Azadlığa dəstək Aktına 907-ci düzəliş” adlı sənəd Vaşinqton-Bakı münasibətlərinin inkişafında mənfi rol oynayıb.

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda sualları cavablandırarkən sənədin bədnam mahiyyətinə diqqət çəkərək bildirib ki, “907-ci düzəliş” ABŞ Konqresi tərəfindən ədalətsiz bir addım idi, bu, ermənipərəst senatorlar tərəfindən irəli sürülmüşdü. O zaman təbii ki, Konqres üzvlərinin Azərbaycandan, Cənubi Qafqazda baş verənlərdən xəbərləri yox idi. Onlar erməni lobbi qruplarının təsiri altına düşərək qurban Azərbaycanı işğalçı kimi təqdim edirdilər. Beləliklə, bu düzəliş o illərdə Azərbaycanın çox ehtiyac duyduğu birbaşa Amerika yardımından məhrum etdi. Humanitar fəlakət yaşayan Azərbaycan “907-ci düzəliş”ə görə keçmiş ittifaq respublikaları arasında birbaşa ABŞ yardımından məhrum qalan yeganə postsovet dövləti idi. Sonra 2001-ci ildə bu sanksiyalar dayandırıldı, çünki ABŞ Hökumətinin Əfqanıstanda Azərbaycanın köməyinə ehtiyacı yaranmışdı. Məsuliyyətli dövlət olan Azərbaycan o dövrdə ABŞ üçün çox vacib nəqliyyat yollarını, “Şimal Paylayıcı Şəbəkə” adlanan əlaqəni təmin etdi. Bu, təkcə hava uçuşları deyil, həm də quru və dəniz nəqliyyatını əhatə edirdi. Sonra hər il Amerika prezidentləri bu düzəlişin qüvvəsini dayandırırdılar, 2023-cü ilə qədər. Bayden administrasiyası bütün dünyanın gözü qarşısında Əfqanıstandan qaçdığı dövrdə ədalətsiz “907-ci düzəliş”in dayandırılmasına da lüzum görmədi. Bu, Azərbaycana mənfi münasibətin və nankorluğun zirvəsi idi.

ABŞ-da administrasiya dəyişikliyindən sonra isə 907-ci düzəlişin dayandırılması ənənəsi bərpa olunub. Bununla bağlı D.Tramp elə bu günlərdə ikinci dəfə memorandum imzalayıb. İndi Azərbaycan güclü dövlətdir, böyük həcmdə strateji valyuta ehtiyatlarına malikdir. Ancaq D.Trampın ardıcıl qaydada “907-düzəliş”in hüquqi qüvvəsini dayandırması strateji tərəfdaşlıq müstəvisində inkişaf edən Azərbaycan-ABŞ münasibətlərinin ruhuna adekvatdır.

Yaxşı haldır ki, artıq ABŞ-ın özündə də “bu bədnam düzəliş birdəfəlik tarixin arxivinə qovuşmalıdır” deyənlərin sayı artmaqdadır. Diqqətçəkən mühüm məqam həm də ondan ibarətdir ki, Konqresdə də bu mövqedə olanların sayı artmaqdadır. Xatırladaq ki, ötən ilin dekabr ayında ABŞ Nümayəndələr Palatasının üzvü Anna Paulina Luna “907-ci düzəliş”i tam ləğv etməyə yönəlmiş qanun layihəsini təqdim edib və sənəd Konqresin saytında yerləşdirilib. Qanun layihəsində deyilir ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən bəri Amerika Birləşmiş Ştatlarının və onun müttəfiqlərinin sadiq tərəfdaşı olaraq qalır, Azərbaycan müharibə dövründə də, sülh dövründə də mühüm əməkdaşlığı təmin edib. Qanun layihəsinə əsasən, Azadlığa Dəstək Aktının 907-ci maddəsi ləğv edilir və qanundan həmin maddə ilə əlaqəli bənd çıxarılır.

Sözügedən qanun layihəsinin həmmüəllifi qismində Nümayəndələr Palatasının digər üzvü Abraham Hamadeyi çıxış edir. O, cari ilin iyun ayında Azərbaycana səfər edib və ölkə Prezidenti İlham Əliyevin, eləcə də xarici işlər naziri Ceyhun Bayramovun qəbulunda olub.

Hazırda “907-ci düzəliş”in mövcudluğuna heç bir əsas yoxdur. Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda bildirdiyi kimi, bu gün “907-ci düzəliş” tamamilə köhnəlib. Artıq şərait də dəyişib, Cənubi Qafqazda yeni reallıqlar hökm sürür. 2025-ci ilin avqustunda Vaşinqtonda Azərbaycanla Ermənistan arasında yekun sülh sazişi paraflandıqdan sonra regionda faktiki olaraq sülh şəraiti var. Azərbaycan öz ərazisindən Ermənistana tranzit keçidlərini təmin edir, həmçinin bu ölkəyə enerji məhsullarının satışını həyata keçirir. Paralel şəkildə, cəmiyyətlər səviyyəsində etimad quruculuğu prosesinə start verilib. Eyni zamanda, Azərbaycan-ABŞ münasibətlərində də Bayden dönəminin buzları əriyib. Bu kimi reallıqlar ortada ikən bədnam “907-ci düzəliş”in hələ də mövcudluğuna nə ehtiyac var? “907-ci düzəliş” tamamilə aradan qaldırılmalı və ləğv edilməlidir” deyən dövlətimizin başçısı vurğulayıb: “Əfsuslar olsun ki, Prezident Trampın qəti mövqeyinə baxmayaraq, hələ ki qüvvədə qalır. ABŞ Konqresi bunu nə qədər tez ləğv edərsə, bu həm hamı, həm də Azərbaycan üçün faydalı olacaq, çünki belə olan halda ayrı-seçkilik aradan qalxacaq və Konqres öz məsuliyyətini və bacarığını nümayiş etdirəcək. Bu da o demək olacaq ki, onlar öz səhvlərini etiraf edirlər və cari geosiyasi vəziyyətə uyğun addım atırlar. Beləliklə, biz ümid edirik ki, bu, baş verəcək”.

*Mübariz FEYİZLİ*

# Qonşuluq siyasətində media qarşıdurması: İranın qərəzli addımı

Azərbaycan müstəqilliyini bərpa etdiyi gündən etibarən xarici siyasətini qarşıdurma deyil, əməkdaşlıq üzərində qurmağa üstünlük verib. Xüsusilə mürəkkəb geosiyasi şəraitin hökm sürdüyü Cənubi Qafqaz və Yaxın Şərq regionunda rəsmi Bakı beynəlxalq hüququn norma və prinsiplərinə, dövlətlərin suverenliyinə və daxili işlərinə qarışmamaq prinsipinə sadiqliyini dəfələrlə nümayiş etdirib. Bu yanaşma yalnız diplomatik fəaliyyətlə məhdudlaşmır, həm də Azərbaycanın informasiya siyasətində və media məkanında öz əksini tapır. Ölkənin rəsmi mövqeyi ondan ibarətdir ki, qonşu dövlətlərlə münasibətlər qarşılıqlı hörmət, etimad və mehriban qonşuluq prinsipləri əsasında inkişaf etməlidir. Hətta üçüncü ölkələr arasında yaranan hərbi və siyasi qarşıdurmalar zamanı da Azərbaycan qətiyyətli şəkildə sülhə, dialoqa və diplomatik həll yollarına çağırış edir. Azərbaycan heç vaxt öz ərazisinin başqa dövlətlərə qarşı istifadə edilməsinə imkan verməyəcəyini açıq şəkildə bəyan edib və bunu milli təhlükəsizlik strategiyasının dəyişməz prinsipi kimi qəbul edir. İnformasiya siyasətində də eyni yanaşma müşahidə olunur. Azərbaycan mediası, peşəkar media təmsilçilərimiz beynəlxalq jurnalistika prinsiplərinə sadiq qalaraq hadisələri obyektiv təqdim etməyə, ayrı-ayrı dövlətlərin daxili proseslərinə müdaxilə etməməyə çalışır və buna əməl edir. Buna baxmayaraq, bəzi hallarda Azərbaycanın bu konstruktiv və məsuliyyətli mövqeyi qarşı tərəfdən adekvat münasibətlə qarşılanmır. Son dövrlərdə İran tərəfindən Azərbaycan mediasına qarşı nümayiş etdirilən münasibət də məhz bu kontekstdə ciddi narahatlıq doğurur və media sahəsində qarşılıqlı münasibətlərin gələcəyi ilə bağlı suallar yaradır.

## Azərbaycan mediasına qarşı əsassız ittihamlar...

### Sülh və balans siyasəti media müstəvisində də qorunur

Vurğulandığı kimi, Azərbaycanın xarici siyasət kursu informasiya siyasətində də aydın şəkildə hiss olunur. Xüsusilə İran-ABŞ arasında gərginliyin artdığı dövrlərdə həm rəsmi Bakı, həm də aparıcı Azərbaycan media qurumları emosional ritorikadan uzaq dayanaraq, gərginliyin diplomatik yollarla aradan qaldırılmasının vacibliyini ön plana çıxarıblar. Xəbərlərin təqdimatında faktlara əsaslanmaq, qarşıdurmanı qızışdıran ifadələrdən çəkinmək və tərəflərin rəsmi mövqelərinə yer vermək Azərbaycan mediasının əsas xətti olub. Lakin təəssüf doğuran hal ondan ibarətdir ki, bu obyektiv və ehtiyatlı yanaşma hər zaman qarşı tərəfdən eyni şəkildə qiymətləndirilmir. Bunun son nümunəsi İran İslam Respublikasının Kəşfiyyat Nazirliyinin bəzi xarici media qurumlarını, o cümlədən AzTV-ni "düşmən media qurumları" siyahısına daxil etməsi və həmin media orqanları ilə əməkdaşlıq edən şəxsləri cinayət məsuliyyəti ilə hədələməsidir. Belə bir qərar təkcə media azadlığı baxımından deyil, həm də iki qonşu dövlət arasında formalaşmış münasibətlərin ruhu baxımından suallar doğurur. Azərbaycan mediasının İrana qarşı hər hansı təxribatçı və ya düşmənçilik xarakterli fəaliyyət göstərmədiyi şəraitdə bu addımın atılması birtərəfli və qərəzli yanaşma kimi qiymətləndirilə bilər. Belə qərarlar qarşılıqlı etimadın möhkəmlənməsinə deyil, əksinə, informasiya mühitində gərginliyin artmasına xidmət edir.

### MEDİA bəyanat yaydı...

Qeyd edək ki, Medianın İnkişafı Agentliyi İran İslam Respublikasının Kəşfiyyat Nazirliyi tərəfindən bəzi xarici media subyektlərinin, o cümlədən AzTV-nin "düşmən media qurumları" siyahısına daxil edilməsi və həmin qurumlarla əməkdaşlıq edən şəxslərin cinayət məsuliyyəti ilə hədələnməsi ilə bağlı Bəyanat yayıb. Bəyanatda bildirilir ki, "İran İslam Respublikasının Kəşfiyyat Nazirliyi tərəfindən bəzi xarici media subyektləri, o cümlədən Azərbaycan Respublikasının dövlət televiziya kanalı olan AzTV-nin "düşmən media qurumları" siyahısına daxil edilməsi və həmin qurumlarla əməkdaşlıq edən şəxslərin cinayət məsuliyyəti ilə hədələnməsi təəccüb doğurur.

Heç şübhəsiz ki, Azərbaycan Respublikası jurnalistlərin peşə fəaliyyətinin müdafiəsinə sadiq olmaqla yanaşı, qarşılıqlılıq prinsipinin tətbiqini də təmin edir. Belə ki, "Media haqqında" Azərbaycan Respublikası Qanununun 11.4-cü maddəsinə əsasən, Media Reyestrinə daxil edilmiş jurnalistlərin peşə fəaliyyətinin həyata keçirilməsinə digər dövlətlər tərəfindən xüsusi məhdudiyyətlər qoyulduqda həmin məhdudiyyətləri tətbiq etmiş dövlətin jurnalistlərinə Azərbaycan Respublikasında da eyni məhdudiyyətlər qoyula bilər.

Müvafiq maddənin tələbləri və qarşılıqlılıq prinsipi nəzərə alınaraq, Azərbaycan Respublikasının milli maraqlarına zidd fəaliyyət göstərən, ölkəmizin suverenliyi, konstitusiya quruluşu, ərazi bütövlüyü və milli təhlükəsizliyi əleyhinə təbliğat aparan media subyektlərinin - "Səhər" telekanalı və "Mehr" xəbər agentliyinin, həmçinin bu subyektlərin nümayəndələrinin Azərbaycan Respublikası ərazisində fəaliyyəti qanunsuz hesab edilir".

Bəyanatda həmçinin qeyd olunur ki, "Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün media subyektlərini və jurnalistləri ölkəmizin milli maraqlarına qarşı fəaliyyət göstərən yuxarıda adları çəkilən media qurumları və onların əlaqəli nümayəndələri ilə əməkdaşlıqdan çəkinməyə çağırır, media sahəsində beynəlxalq əməkdaşlığın yalnız qarşılıqlı hörmət və jurnalistlərin peşə müstəqilliyi əsasında həyata keçirilməli olduğunu bir daha vurğulayırıq".

### Azərbaycan mediasının obyektiv mövqeyi qərəzli ittihamlarla uzlaşmır

Azərbaycan mediası uzun illərdir regionda baş verən prosesləri peşəkar jurnalistika prinsipləri çərçivəsində işıqlandırmağa çalışır. İranla bağlı hadisələrin təqdimatında da əsas meyar rəsmi mənbələrə istinad etmək, müxtəlif mövqelərə yer vermək və ölkənin daxili siyasi proseslərinə müdaxilə xarakteri daşıyan materiallardan yayınmaq olub. İstər siyasi hadisələr, istər təhlükəsizlik məsələləri, istərsə də sosial proseslər barədə yayımlanan materiallarda balans prinsipi qorunmağa çalışılıb. Bu baxımdan, Azərbaycan Dövlət Televiziyasını "düşmən media" kimi təqdim etmək nə peşəkar fəaliyyətlə, nə də faktlarla uzlaşır. Əksinə, Azərbaycan media qurumları İran cəmiyyətində baş verən hadisələri mümkün qədər obyektiv və neytral şəkildə təqdim etməyə üstünlük veriblər. Məhz buna görə də İranın son qərarı Azərbaycanda təəccüb və narazılıqla qarşılanır. Dövlətlərarası münasibətlərdə media sahəsində əməkdaşlıq və qarşılıqlı hörmət mühüm əhəmiyyət daşıdığı halda, birtərəfli ittihamlar bu münasibətlərə xələl gətirir. Xüsusilə qonşu dövlətlər arasında informasiya mübadiləsinin qarşılıqlı etimad əsasında qurulması regional sabitlik baxımından da vacib amildir. Bu səbəbdən Azərbaycan mediasına qarşı irəli sürülən ittihamların hüquqi və faktiki əsaslarının olmaması həmin qərarın siyasi motivli olduğu barədə müzakirələri gücləndirir.

### Azərbaycan qanunvericiliyi qarşılıqlılıq prinsipini nəzərdə tutur

Bəyanatda da göstərildiyi kimi, Azərbaycan qanunvericiliyi milli informasiya məkanının və jurnalistlərin hüquqlarının qorunması üçün konkret hüquqi mexanizmlər müəyyən edib. Məhz bu hüquqi baza nəzərə alınaraq aidiyyəti qurum tərəfindən bildirilib ki, Azərbaycanın milli maraqlarına zidd fəaliyyət göstərən, ölkənin suverenliyi, ərazi bütövlüyü, konstitusiya quruluşu və milli təhlükəsizliyi əleyhinə təbliğat aparan İranın "Səhər" televiziya kanalı, "Mehr" xəbər agentliyi və onların nümayəndələrinin Azərbaycandakı fəaliyyəti qanunsuz hesab olunur. Bu qərar media azadlığının məhdudlaşdırılması deyil, qanunvericilikdə nəzərdə tutulmuş qarşılıqlılıq mexanizminin tətbiqi kimi qiymətləndirilir. Dövlətlər arasında münasibətlərdə hüquqi bərabərlik prinsipi vacib olduğundan, birtərəfli məhdudiyyətlər cavabsız qalmır. Azərbaycanın mövqeyi də məhz beynəlxalq hüququn və milli qanunvericiliyin verdiyi imkanlar çərçivəsində formalaşdırılıb.

### "Mehr" və "Səhər"in Azərbaycana münasibətdə qərəzli fəaliyyəti yeni deyil

İranın "Mehr" xəbər agentliyi və "Səhər" televiziya kanalı uzun illərdir Azərbaycanla bağlı materiallarında qərəzli yanaşmaları ilə diqqət çəkirlər. Xüsusilə 2020-ci ilin 44 günlük Vətən müharibəsi dövründə bu media qurumlarının hazırladığı bir sıra materiallar Azərbaycanda ciddi narazılıq doğurmuşdu. Həmin dövrdə Ermənistanın mövqeyini əsaslandırmağa çalışan, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan hərbi əməliyyatlarını təhrif edən, erməni mənbələrinin iddialarını kifayət qədər yoxlanılmadan tirajlayan xəbərlər yayımlanırdı. Bəzi materiallarda Azərbaycanın ərazi bütövlüyü ilə bağlı beynəlxalq hüququn tanıdığı reallıqlar kölgədə saxlanılır, əvəzində Ermənistanın mövqeyinə geniş yer verilirdi. Bundan başqa, Azərbaycanın daxili ictimai-siyasi prosesləri ilə bağlı hazırlanmış bəzi reportaj və şərhlərdə də qərəzli ifadələrdən istifadə olunması, ölkənin daxili işlərinə münasibət bildirilməsi Azərbaycanda haqlı etirazlara səbəb olmuşdu. Məhz bu ardıcıl yanaşma göstərir ki, son qərarlar təsadüfi deyil, uzun müddətdir müşahidə olunan informasiya siyasətinin davamıdır. Belə şəraitdə Azərbaycanın milli informasiya təhlükəsizliyini qorumaq üçün qanunvericiliyin verdiyi imkanlardan istifadə etməsi təbii və əsaslandırılmış addım kimi qiymətləndirilə bilər.

### Milli maraqların və informasiya təhlükəsizliyinin qorunması

Bəli, müasir beynəlxalq münasibətlər sistemində media dövlətlərarası münasibətlərin mühüm komponentlərindən birinə çevrilib. İnformasiya müharibələrinin, dezinformasiyanın və siyasi manipulyasiyaların artdığı bir dövrdə peşəkar jurnalistika prinsiplərinə sadiqlik xüsusi əhəmiyyət daşıyır. Azərbaycan həm xarici siyasətində, həm də media mühitində balanslı, obyektiv və məsuliyyətli xətt yürütməyə çalışdığını dəfələrlə nümayiş etdirib. Lakin bu yanaşmanın qarşılıqlı hörmət əsasında davam etməsi üçün bütün tərəflərin eyni məsuliyyəti bölüşməsi vacibdir. Azərbaycan mediasına qarşı əsassız ittihamlar və birtərəfli məhdudiyyətlər konstruktiv dialoqa xidmət etmir. Eyni zamanda, Azərbaycan qanunvericiliyinin qarşılıqlılıq prinsipini nəzərdə tutması dövlətin milli maraqlarını və informasiya təhlükəsizliyini qorumaq baxımından hüquqi əsas yaradır.

**P.İSMAYILOV**

# Geosiyasi qeyri-müəyyənlik neft-qaz qiymətlərinə necə təsir edir?

ABŞ-ın İrana hücumlarının dayandırılmasından sonra münaqişənin diplomatik yolla həll olunacağı və Yaxın Şərqdə enerji axınlarının normal vəziyyətə qayıdacağı gözləntiləri fonunda birjalarda xam neft qiymətləri ucuzlaşır.

Gərginliyin artmasının qarşısını almaq üçün yol tapmaq neft qiymətlərinə aşağı istiqamətli təzyiqi və Səudiyyə Ərəbistanının infrastrukturuna husi hücumları ilə bağlı narahatlıqları azaldır. Lakin vəziyyət olduqca dəyişkən olaraq qalır.

ABŞ-ın Enerji İnformasiya Administrasiyası (EIA) bu il qlobal neft istehlakının gündəlik orta hesabla 1,2 milyon barel azalacağını proqnozlaşdırır. Digər tərəfdən isə Hörmüz boğazından neft axını hələ də zəif olaraq qalır. İyulun 24-də bitən həftədə boğazdan xam neft və emal olunmuş məhsulların ixracının həcmi gündəlik orta hesabla 2,9 milyon barel təşkil edib. Əvvəlki həftə isə bu göstərici sutkada 5,9 milyon barel olub. Analitiklərin fikrincə, bütün bu proseslər "qara qızıl"ın qiymətlərinə aşağı istiqamətli təzyiqi artıran amillərdəndir.

Hazırda Londonun ICE birjasında "Brent" markalı xam neftin bir bareli 86 dollara, Nyu-Yorkun NYMEX birjasında "Light" neftinin bir bareli isə 80 dollara satılır. Qiymətlərin enməsinə ABŞ-ın İrana hücumlarının dayandırmasından sonra diplomatik həll yoluna ümidlərin güclənməsi və Yaxın Şərqdən neft tədarükü ilə bağlı narahatlıqların azalması təsir göstərib. Qlobal neft ticarəti üçün vacib olan Hörmüz boğazında və Yəməndə İran tərəfindən dəstəklənən husi üsyançıları tərəfindən Səudiyyə Ərəbistanının dəniz blokadasından sonra Bab əl-Məndəb boğazında təhlükəsizlik riskləri isə neft qiymətlərinin ucuzlaşmasını məhdudlaşdırır.




Ekspertlər Hörmüz boğazında və Bab əl-Məndəbdə tanker daşımalarının normal səviyyədən aşağı olduğunu və İranla Oman arasında Hörmüz boğazında təhlükəsiz dəniz nəqliyyatının təmin edilməsi üçün aparılan danışıqların yaxından izlənildiyini qeyd edirlər.

Husi üsyançılarının təhdidləri səbəbindən Səudiyyə Ərəbistanının Qırmızı dənizdəki əsas ixrac mərkəzində gəmi trafikində azalma müşahidə olunur. Belə ki, boş supertankerlər Səudiyyə Ərəbistanı xam neftini götürmək üçün Misirin Aralıq dənizindəki Sidi Kerir limanına doğru yola düşür.

Gəmi və sığorta brokerlərinin sözlərinə görə, bəzi sığorta şirkətləri hücum riski səbəbindən krallığın limanlarına daxil olan gəmilər üçün sığorta əhatə dairəsini məhdudlaşdırmağa başladıqdan sonra bəzi gəmi sahibləri tankerləri Səudiyyə Ərəbistanına göndərməkdə tərəddüd edirlər.

Bundan başqa, Yaxın Şərqdəki müharibənin xarici təchizatı sıxışdırdığı və enerji təhlükəsizliyinin artırılmasının vacibliyini ortaya qoyduğu üçün Avstraliya hökuməti 1965-ci ildən bəri ilk dəfə yeni neft emalı zavodunun tikintisini nəzərdən keçirir.

Avropada isə avqust ayı üçün təbii qaz fyuçers müqavilələrinin qiyməti meqavat/saat üçün 58,7 avro səviyyəsindədir. "Gas Infrastructure Europe"ə (GIE) görə, Avropa İttifaqı ölkələrində təbii qaz anbarlarının doluluq nisbəti 55,3 faizdir. Bu, son 5 ilin orta göstəricisindən aşağıdır və uzunmüddətli təchizatla bağlı narahatlıqlar yaradır. Hazırda Avropanın mayeləşdirilmiş təbii qaz idxalının 60 faizi ABŞ-nin payına düşür. Almaniyanın LNG idxalında isə ABŞ-ın payı 90 faizi keçib.

# Roma danışıqları...

## İsrail-Livan sülh prosesində irəliləyişlər müşahidə olunur

ABŞ-ın vasitəçiliyi ilə İsrail və Livan arasında danışıqların növbəti mərhələsi 4-6 avqust tarixlərində Romada keçiriləcək. Bu barədə məlumatı Dövlət Departamentinin rəsmisi açıqlayıb. Bildirilir ki, Livanın cənubunda ilk pilot zonanın uğurla tətbiqindən və Livan Prezidenti Cozef Aunun ötən həftə Prezident Donald Trampla görüşündən sonra İsrail-Livan məsələsi istiqamətində əhəmiyyətli irəliləyiş müşahidə olunur. "Romada texniki qruplar çərçivə sazişinin tam tətbiqini irəlilətməyə diqqət yetirəcəklər. Buraya pilot zona prosesini genişləndirmək, bütün həll olunmamış sərhəd məsələlərini həll etmək və hərtərəfli sülh və təhlükəsizlik sazişi üzərində işləmək məsələləri daxildir. İlkin zonaların təcrübəsi bizə mərhələli şəkildə pilot zonanın tətbiqini mükəmməlləşdirməyə kömək edəcək", - deyə Dövlət Departamentinin rəsmisi bildirib. Qeyd edilib ki, üçtərəfli Çərçivə sazişi İsrail və Livan arasında davamlı sülhə aparan yeganə yoldur və onun tam tətbiqi hər iki ölkənin açıq maraqlarına uyğundur.

### Sazişdə nələr var?

Xatırladaq ki, Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi və dəstəyi nəticəsində Livan və İsrail hökumətləri arasında çərçivə sazişi iyunun 26-da imzalanmışdı. Sazişin imzalanmasından bir müddət sonra da tərəflər arasında gərginlik davam etmişdi. Lakin Vaşinqtonun səyləri hazırda bölgədə vəziyyəti nisbətən sakitləşdirib. İsrail və Livan arasında razılaşmaya dair çərçivə sazişi İsrail qoşunlarının respublika ərazisindən tədricən çıxarılmasını nəzərdə tutur. Sənəd münaqişəyə son qoyulmasını, Livanın bütün ərazisi üzərində tam suveren nəzarətinin bərpasını, eləcə də qeyri-dövlət silahlı qruplarının tərksilah edilməsini və onlarla əlaqəli infrastrukturun ləğvini nəzərdə tutur. Bu şərtlər yerinə yetirildikdən sonra İsrail qüvvələri mərhələli şəkildə ölkədən çıxmalıdır. Təhlükəsizlik tədbirləri və nəzarət mexanizmləri də daxil olmaqla, prosesin təfərrüatları ABŞ-ın dəstəyi ilə hazırlanmış ayrıca bir əlavədə göstəriləcək. Saziş, həmçinin hazırda İsrail qüvvələrinin əlində olan iki ərazinin nəzarətinin Livan hakimiyyətinə verilməsini nəzərdə tutur. Onların dəqiq yeri açıqlanmır. Sənəddə vurğulanır ki, "Hizbullah" da daxil olmaqla silahlı qrupların yaratdığı təhlükənin aradan qaldırılması gələcəkdə İsrail Müdafiə Qüvvələrinin Livandakı mövcudluğunu aradan qaldırmağa imkan verəcək.

### İsrail ordusu Livan ərazisini tərk edir

Livanın xarici işlər naziri Yusif Raci İsraillə əldə olunmuş çərçivə sazişinin yekun razılaşma olmadığını, yalnız münaqişənin həlli istiqamətində danışıqların davam etdirilməsi üçün əsas yaratdığını bildirib. Onun sözlərinə görə, İsraillə imzalanmış çərçivə sazişi yekun sənəd deyil, gələcək danışıqların aparılması və prosesin tamamlanması üçün baza rolunu oynayır. Yusif Raci qeyd edib ki, Livan mövcud şəraitdə danışıqlara başlamağa məcbur olub. O bildirib ki, hökumət ölkədə sabitlik və rifahın yeni mərhələsini başlatmaq niyyətindədir.

Nazir, həmçinin vurğulayıb ki, silahlı qüvvələrin və silahların yalnız dövlətin nəzarətində olması təkcə xarici tərəflərin tələbi deyil, həm də Livanın güclü, normal və suveren dövlət kimi inkişafı üçün zəruri şərtdir.

ABŞ Prezidenti Donald Tramp isə İsrailin Baş naziri Binyamin Netanyahuya İsrail qoşunlarının Livan və Suriyadan çıxarılmasının vacibliyini bildirib. Bu barədə "Axios" ABŞ və İsraildən adları açıqlanmayan rəsmilərə istinadla məlumat yayıb. Məlumata görə, Tramp bu mövqeyini Binyamin Netanyahu ilə telefon danışığı zamanı çatdırıb.

Trampın xəbərdarlığından sonra əldə edilmiş razılaşmaya əsasən, İsrail Livanın cənubunda nəzarətində saxladığı bir sıra əraziləri "pilot zona" bölgüsünə uyğun olaraq Livana qaytarmağa başlayıb. Livan ordusunun nəzarətinə verilən ilk zona - Qərbi Zavtar qəsəbəsi Nabatiyyə rayonunda yerləşir. Razılaşmaya əsasən, İsrail ordusunun nəzarətində olan bir sıra Livan əraziləri 3 "pilot zona" - Qərbi Zavtar, Froun, Srifa üzrə geri qaytarılacaq.

ABŞ-ın vasitəçiliyi ilə əldə olunmuş razılaşma çərçivəsində İsrail qoşunlarının cənubdakı Zautar-əl-Qarbiya şəhərindən çıxarılmasından sonra Livan ordusunun hərbçiləri bu bölgədə yerləşməyə başlayıblar. "Quru qoşunlarının komandanlığı bir daha vətəndaşları təhlükəsizlik vəziyyəti sabitləşənə qədər şəhərə getməməyə və göstərişlərə əməl etməyə çağırır", - deyə, Livan ordusunun bəyanatında bildirilib. Daha əvvəl ABŞ Dövlət Departamentindən bildirilmişdi ki, Zautar-əl-Qarbiya ABŞ-ın vasitəçiliyi ilə əldə olunmuş razılaşmanın icrasının sınaqdan keçirilməsi planlaşdırılan üç cənub rayonundan biridir. Tərəflər arasında razılaşmaya uyğun olaraq, İsrail hərbçiləri Livanın cənubunda tutduqları mövqelərdən qüvvələrini mərhələli şəkildə çıxaracaqlar. Bundan sonra Livan ordusu təhlükəsizliyin təmin edilməsini öz üzərinə götürəcək və "Hizbullah"ın tərk-silah edilməsi prosesinə nəzarət edəcək. Digər iki yaşayış məntəqəsi isə Frun və Srifadır.



### Livan ABŞ-ın dəstəyindən razıdır

Yeri gəlmişkən, Livan Prezidenti Cozef Aun Vaşinqtona səfəri zamanı ABŞ Dövlət katibi Marko Rubio ilə görüşdə İsraillə əldə olunan sülh razılaşmalarının həyata keçirilməsi üzrə addımları razılaşdırıb. Bu barədə Livan dövlət başçısının dəftərxanasının bəyanatında bildirilib: "Prezident Aun danışıqlarda irəliləyişə göstərdiyi dəstəyə görə ABŞ-a təşəkkür edib və vurğulayıb ki, iyunun 26-da imzalanmış çərçivə sazişi İsraillə münaqişəyə son qoymağa yönəlib". Livan prezidentinin sözlərinə görə, əldə olunan razılaşmaların icrası İsrail qoşunlarının ölkənin cənubundakı ərazidən çıxarılması ilə başlayır.

Bəyanatda həmçinin bildirilir ki, Aun ABŞ dövlət katibindən Livan silahlı qüvvələrinə və təhlükəsizlik strukturlarına dəstəyin artırılmasını, eləcə də ölkə iqtisadiyyatının müxtəlif sahələrinə, xüsusilə energetika, telekommunikasiya və nəqliyyat sektorlarına Amerika investisiyalarının cəlb edilməsinə kömək göstərilməsini xahiş edib.

Cozef Aun Ağ Evdə ABŞ Prezidenti Donald Trampla görüşdə isə sülh üçün dəstəyə görə amerikalı həmkarına təşəkkür edib. Bu, 2009-cu ildən bəri Livan Prezidentinin Ağ Evə ilk səfəridir. Tramp isə Aunun əlini sıxaraq ona çox hörmət etdiyini bildirib.

Hazırda İsrail ordusunun Livan ərazisini tərk etməsi dayanıqlı sülhün təmin olunması üçün ümidlər yaradır. Bu baxımdan, tərəflərin Roma görüşündən nikbin gözləntilər var.

***N.BAYRAMLI***

# BMT-nin Baş katibi Kipr adasında...

## "Vida səfəri", yoxsa Quterreşin adanı vahid dövlət kimi birləşdirmək arzusu?

BMT-nin Baş katibi Antonio Quterreş rəhbərlik etdiyi təşkilatın onilliklər boyu davam edən Kipr probleminin davamlı həllinə nail olmaq öhdəliyini bir daha təsdiqləmək üçün iyulun 28-də adaya səfərə gəlib. A. Quterreş "X" sosial media platformasında bildirib: "Mən Kipr məsələsinin hərtərəfli və davamlı həlli axtarışında adanın icmalarına dəstək verməyə sadiq olduğumu bildirmək üçün Kiprə gəlmişəm. BMT tərəfləri sülhə məcbur edə bilməz. Yalnız kiprlilər öz liderləri vasitəsilə sülhü qura bilərlər". Hərtərəfli həll yoluna nail olmaq üçün indiyədək BMT-nin diplomatik səylərinə baxmayaraq, Kipr türkləri və yunan kiprliləri arasında onilliklərdir davam edən mübahisə həll olunmamış qalır.

### Üçtərəfli görüş...

Antonio Quterreşin Şimali Kiprin Prezidenti Tufan Erhürman və Kipr prezidenti Nikos Xristodulidis ilə ayrı-ayrılıqda görüşləri planlaşdırılıb. Qeyd edilib ki, BMT-nin Baş katibi çərşənbə günü liderləri Lefkoşadakı bufer zonasında BMT-nin Xoşməramlı Missiyasının ofisində bir araya gətirəcək. Üçtərəfli görüşdən sonra Baş katibin mətbuat konfransı keçirməsi planlaşdırılır. Məlumatda həmçinin vurğulanıb ki, bu səfər vəzifədə olan BMT Baş katibinin təxminən 16 ildən sonra Kiprə ilk səfəri kimi tarixə düşəcək.

Səfər zamanı Quterreşi BMT-nin Siyasi və Sülh Quruculuğu Məsələləri üzrə Baş katibinin müavini Rozmari Dikarlo, Sülhməramlı Əməliyyatlar üzrə Baş katibinin müavini Jan-Pyer Lakrua və Kipr üzrə şəxsi nümayəndəsi Mariya Anxela Holquin müşayiət edəcək. Quterreşin digər maraqlı tərəflərlə görüşəcəyi bildirilir. O, sülh prosesini irəli aparmaq və adada sabitliyi dəstəkləmək səylərini, o cümlədən BMT-nin Kiprdəki Sülhməramlı Qüvvələrinin (UNFICYP) bu məsələdə rolunu müzakirə edəcək. BMT-nin uzun müddətdir davam edən sülhməramlı missiyalarından biri olan UNFICYP 1964-cü ildən bəri adada yerləşir.

### "Uğurlu danışıqlar prosesi üçün lazımi təməl hələ qurulmayıb"

Lakin Kipr türkləri A.Quterreşin adaya səfərinə o qədər də nikbin yanaşmır. Onun səfərindən bir neçə gün əvvəl Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Tufan Erhürman yerli televiziya kanalında bildirib ki, BMT-nin Baş katibi Antonio Quterreşin Kiprə səfəri adadakı münaqişənin qəti həlli istiqamətində sanballı addım kimi qəbul edilə bilməz. Kipr türklərinin lideri izah edib ki, Kiprlə bağlı uğurlu danışıqlar prosesi üçün lazımi təməl hələ qurulmayıb. Prezident bildirib: "BMT Baş katibinin 16 ildən sonra Kiprə ilk səfəri yalnız adada etimad atmosferini gücləndirmək üçün konkret addımlara gətirib çıxaracağı və ya bu istiqamətdə əlavə tədbirlər üçün təməl qoyacağı təqdirdə əhəmiyyətli olacaq".

Eyni zamanda, T. Erhürman səlahiyyət müddəti 2026-cı il dekabrın 31-də başa çatacaq A. Quterreşin səfərinin rəsmi "vida səfəri" olacağı iddialarını rədd edib. "BMT Baş katibinin gündəliyinin intensivliyi Kiprdə etimad quruculuğu tədbirlərinin BMT gündəliyindən kənarda qalmadığını göstərir. BMT Baş katibi Lefkoşanın mövqeyini yaxşı bilən ciddi fiqurdur. A. Quterreşin nümayəndə heyətinə tanınmış siyasətçilər və ekspertlər daxildir. Hər şey BMT-nin Kiprlə bağlı gündəliyindən imtina etmədiyini göstərir", - deyə ŞKTC Prezidenti bildirib. Yeni "5+1" dialoq platformasının (iki Kipr icması, üç qarant dövlət - Türkiyə, Böyük Britaniya, Yunanıstan və BMT) formalaşdırılması ehtimalını şərh edən T. Erhürman qeyd edib ki, bu məsələ BMT Baş katibi ilə danışıqlar üçün ilkin şərt deyil, lakin konkret nəticələr üçün zəmin mütləq lazımdır. "Əgər bu, "5+1" formatıdırsa, onda hansı konkret məsələlərin razılaşdırıla biləcəyini əvvəlcədən bilməliyik. Məncə, əsas maraqlı tərəflər Kiprdə yaşayan türklər və yunanlar olaraq qalırlar. Qarant dövlətlər onlara təsir edən ayrı-ayrı məsələlər üzrə prosesdə iştirak edə bilər, lakin "5+1" formatı Kipr icmalarının liderlərinin görüşlərini arxa plana atmamalıdır", - deyə o söyləyib. T. Erhürman müsahibəsinin sonunda ŞKTC və Türkiyənin Kiprlə bağlı mövqelərinin üst-üstə düşdüyünü bildirib.





ŞKTC-nin Baş naziri Ünal Üstel isə deyib ki, Kiprlə bağlı yeni və uzunmüddətli danışıqlar prosesinin açarı Kipr türklərinin suveren bərabərlik və həmin əsasda beynəlxalq statusunun tanınmasıdır. ŞKTC hökumətinin başçısı Ankaranın Kipr məsələsi üçün iki dövlətli həll yolu mövqeyini alqışlayıb: "Ziddiyyətlərin həlli yolu adadakı mövcud reallıqların və iki icmanın suveren bərabərliyinin tanınmasından keçir. Bu, təkcə Ankaranın deyil, həm də Lefkoşanın mövqeyidir. Bu formuldan heç bir sapma ola bilməz". O xatırladıb ki, 1960-cı ildə vahid Kipr Respublikasının yaradılmasının əsasını təşkil edən müqavilələrə əsasən, Kipr türkləri yunan kiprlilərlə bərabər statusa malik olublar. Şimali Kipr hökumətinin başçısı vurğulayıb: "Kipr türkləri ilə bağlı milli azlıq anlayışı kontekstində heç bir müzakirə aparılmayıb və ola da bilməz. Bu, tarixi və hüquqi faktdır".

### Türklər "Annan planı"nın nəticələrini unutmayıb

O, BMT-nin Baş katibi Antonio Quterreşin adaya səfərini vurğulayaraq, beynəlxalq ictimaiyyətə müraciət edib: "Yarım əsrdən çoxdur ki, nəticəsiz müzakirə olunan Kiprin federal quruluşu əvəzinə, adanın siyasi və praktik reallıqlarına əsaslanan yeni bir yanaşma qəbul edilməlidir. Ədalətli və davamlı həll yolu yalnız iki dövlət arasında qarşılıqlı hörmətə və tərəflərin bərabər statusuna əsaslanan əməkdaşlıq modeli çərçivəsində mümkündür".

Əslində, Kipr türklərinin müstəqil dövlət olmaq mövqeyi anlaşılandır. Çünki uzun illər danışıqlar aparılsa da, yunan Kiprinin qeyri-konstruktiv yanaşması nəticəsində razılaşma baş tutmayıb. Hələ 2004-cü ildə BMT-nin o vaxtkı baş katibi K.Annanın adanın birləşdirilməsi ilə bağlı planı hər iki tərəfdə referenduma çıxarılmışdı. "Annan planı"a əsasən, bölünmüş Kipr adasının birləşdirilməsi Birləşmiş Kipr Respublikasının qurulması təklif olunurdu. Belə ki, adanın iki icmalı (türk və yunan) və iki zonalı federal dövlət kimi birləşdirilməsi nəzərdə tutulurdu. 24 aprel 2004-cü ildə keçirilmiş referendumda Kipr türklərinin 65 faizi bu plana "hə" demişdi. Ancaq Kipr yunanları isə 75,38 faiz səslə "Annan planı"nı rədd edib.

Bütün bunların fonunda Kipr türklərinin hazırda müstəqillik tərəfdarı olmaları tamamilə məntiqlidir. Çünki yeni dünya düzəninin formalaşdığı bir zamanda yaranmış tarixi fürsət qaçırılmamalıdır.

***Nardar BAYRAMLI***

# Dron müharibələri

## Yaşadığımız əsrin döyüş meydanı necə dəyişir?

Tarix boyu hər bir texnoloji inqilab müharibələrin xarakterini dəyişdirib. Barıtın ixtirası orta əsr döyüş taktikasını tamamilə yenilədi, tankların meydana çıxması Birinci Dünya müharibəsinin son mərhələsində yeni əməliyyat konsepsiyalarının formalaşmasına səbəb oldu, aviasiyanın inkişafı isə XX əsrdə hava üstünlüyünü müharibələrin əsas amillərindən birinə çevirdi. 1945-ci ildən sonra nüvə silahının yaradılması beynəlxalq münasibətlər sistemində strateji çəkindirmə dövrünü başlatdı. XXI əsrdə isə dünya növbəti böyük hərbi transformasiya ilə üz-üzədir. Bu transformasiyanın mərkəzində pilotsuz uçuş aparatları, süni intellekt, avtonom idarəetmə sistemləri və rəqəmsal texnologiyalar dayanır. Müasir dövrdə döyüş meydanında üstünlük artıq yalnız daha çox tanka, təyyarəyə və ya canlı qüvvəyə malik olmaqla müəyyən edilmir. İnformasiya üstünlüyü, real vaxt rejimində kəşfiyyat məlumatlarının əldə olunması, yüksək dəqiqlikli zərbələrin endirilməsi və qərar qəbuletmə sürəti hərbi əməliyyatların nəticəsinə birbaşa təsir göstərən əsas amillərə çevrilib. Bu dəyişikliklər nəticəsində pilotsuz sistemlər müasir orduların köməkçi vasitəsi olmaqdan çıxaraq onların əsas döyüş komponentlərindən birinə dönüb.

"Reuters"in son illərdə dərc etdiyi analitik materiallarda deyilir ki, Ukrayna müharibəsi pilotsuz sistemlərin hərbi əməliyyatlardakı rolunu kökündən dəyişib. Əgər əvvəllər pilotsuz aparatların əsas funksiyası müşahidə və kəşfiyyat idisə, hazırda onlar zərbə endirmək, artilleriya atəşini idarə etmək, radioelektron kəşfiyyat aparmaq, düşmənin hava hücumundan müdafiə sistemlərini aşkarlamaq və logistika əməliyyatlarında iştirak etmək kimi çoxsaylı funksiyalar yerinə yetirir. Müharibənin gedişi göstərdi ki, nisbətən ucuz pilotsuz aparatlarla milyonlarla dollar dəyərində hərbi texnikanın sıradan çıxarılması artıq adi taktiki üsullardan birinə çevrilib.

BBC isə yazır ki, müasir müharibələrdə pilotsuz sistemlərin sürətli inkişafı klassik döyüş anlayışını dəyişdirir. Əgər əvvəllər cəbhə xətti əsasən tanklar və piyadalar arasında qarşıdurma kimi təsəvvür edilirdisə, indi döyüş meydanı minlərlə kiçik pilotsuz aparatın daim müşahidə apardığı, məlumat topladığı və hədəfləri müəyyən etdiyi mürəkkəb rəqəmsal mühitə dönüb. Hətta ən güclü zirehli texnika belə yuxarıdan aparılan fasiləsiz müşahidə səbəbindən əvvəlki kimi gizli manevr edə bilmir.

Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun (IISS) ekspertləri hesab edirlər ki, hazırda dünya "pilotsuz müharibə" mərhələsinə daxil olur. Onların fikrincə, pilotsuz sistemlərin tətbiqi yalnız yeni silah növünün meydana çıxması deyil, bütövlükdə hərbi planlaşdırmanın dəyişməsi deməkdir. Keçmişdə əsas məqsəd düşmənin canlı qüvvəsini və texnikasını məhv etmək idisə, indi ilk növbədə onun informasiya sistemlərini, rabitəsini, müşahidə imkanlarını və qərar qəbuletmə mexanizmini sıradan çıxarmaq hədəflənir. Bu isə pilotsuz sistemlərin yalnız taktiki yox, həm də strateji əhəmiyyət daşıdığını göstərir.

Müasir pilotsuz sistemlərin inkişaf tarixi düşündüyümüzdən daha qədimdir. İlk pilotsuz platformalar ötən əsrin ortalarında əsasən kəşfiyyat məqsədilə hazırlanmışdı. ABŞ Vyetnam müharibəsində pilotsuz kəşfiyyat aparatlarından istifadə etmiş, sonrakı illərdə isə bu texnologiyalar Körfəz müharibəsi, Əfqanıstan və İraqda daha da inkişaf etdirilmişdi. Lakin həmin dövrdə pilotsuz aparatların sayı məhdud idi, onlar əsasən böyük dövlətlərin istifadəsində olan bahalı hərbi sistemlər sayılırdı. Son on ildə vəziyyət tamamilə dəyişib. Mikroelektronikanın inkişafı, GPS texnologiyalarının geniş yayılması, yüksək keyfiyyətli kameraların ucuzlaşması və süni intellekt alqoritmlərinin inkişafı nəticəsində pilotsuz aparatların istehsal dəyəri xeyli azalıb. Artıq hətta kommersiya məqsədilə istehsal olunan bəzi dronlardan belə müəyyən dəyişikliklərdən sonra döyüş şəraitində istifadə edilir.

Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (Stockholm International Peace Research Institute - SIPRI) analitikləri hesab edirlər ki, pilotsuz uçuş aparatlarının və süni intellekt əsaslı silah sistemlərinin sürətli inkişafı qlobal təhlükəsizlik mühitində tamamilə yeni silahlanma yarışına səbəb olub. Onların fikrincə, XX əsrdə dövlətlər əsasən tankların, döyüş təyyarələrinin, hərbi gəmilərin və nüvə arsenalının artırılmasına üstünlük verirdilərsə, XXI əsrdə rəqabət daha çox yüksək texnologiyalar, süni intellekt, yarımkeçirici mikroçiplər, kvant hesablama sistemləri, peyk rabitəsi və avtonom silah platformalarının yaradılması istiqamətində gedir. SIPRI ekspertləri vurğulayırlar ki, müasir hərbi üstünlük artıq təkcə ordunun sayından və ya silah ehtiyatlarından yox, həm də dövlətin elmi tədqiqat potensialından, innovasiya imkanlarından, yüksək texnologiyalar istehsal edən sənayesindən və rəqəmsal infrastrukturunun inkişaf səviyyəsindən asılıdır. SIPRI analitiklərinin araşdırmalarına görə, pilotsuz sistemlərin istehsal xərclərinin azalması və onların texnoloji cəhətdən daha əlçatan olması bu texnologiyaların qlobal miqyasda sürətlə yayılmasına şərait yaradıb. Əgər əvvəllər yalnız iqtisadi və texnoloji baxımdan inkişaf etmiş dövlətlər mürəkkəb pilotsuz sistemlər hazırlaya bilirdilərsə, hazırda bir çox ölkə öz milli pilotsuz aparat proqramını həyata keçirir. Proses bir tərəfdən dövlətlərin müdafiə qabiliyyətini gücləndirsə də, digər tərəfdən qeyri-dövlət silahlı qrupların və terror təşkilatlarının da bu texnologiyalara çıxış imkanlarını artırır ki, bu da beynəlxalq təhlükəsizlik üçün yeni risklər yaradır.

SIPRI mütəxəssisləri bunu da qeyd edirlər ki, gələcəyin silahlanma yarışı artıq ənənəvi silahların kəmiyyət göstəricilərindən daha çox texnoloji üstünlük uğrunda rəqabət formasını alır. Süni intellekt, böyük verilənlərin emalı (Big Data), maşın öyrənməsi (Machine Learning), avtonom idarəetmə sistemləri, peyk müşahidəsi və kibertəhlükəsizlik texnologiyaları gələcəyin hərbi gücünü müəyyən edən əsas amillər sayılır. Buna görə də dövlət müdafiə sənayesinə investisiyalarla yanaşı, universitetlərin, elmi-tədqiqat institutlarının və innovasiya mərkəzlərinin inkişafına da strateji milli təhlükəsizlik məsələsi kimi yanaşmalıdır. SIPRI-nin qənaətinə görə, yaxın onilliklərdə hərbi üstünlük daha çox tank və ya döyüş təyyarəsinə malik olan dövlətə yox, elm, texnologiya və innovasiya sahəsində lider mövqedə olan ölkələrə məxsus olacaq.

Pilotsuz sistemlərin sürətlə inkişaf etdiyi ölkələr arasında ABŞ, Çin, Türkiyə, İsrail və Cənubi Koreya xüsusi yer tutur. ABŞ uzun illər bu sahədə texnoloji lider olub, MQ-1 Predator və MQ-9 Reaper kimi pilotsuz aparatlarla müasir zərbə dronlarının əsasını qoyub. İsrail pilotsuz kəşfiyyat sistemlərinin inkişafında öncül ölkələrdən biri sayılıb, Çin son illər həm daxili ehtiyaclar, həm də ixrac bazarı üçün geniş çeşiddə pilotsuz platformalar hazırlayıb. Türkiyə isə "Bayraktar", "Anka", "Akıncı" və "Kızılelma" layihələri ilə bu sahədə yeni texnoloji model formalaşdırıb.

"Financial Times" yazır ki, pilotsuz sistemlərin inkişafı artıq yalnız hərbi məsələ olmaqdan çıxıb, həm də iqtisadi və sənaye siyasətinin tərkib hissəsinə çevrilib. Müdafiə sənayesində proqram təminatı, mikroçiplər, optik sistemlər və süni intellekt sahəsində çalışan şirkətlər strateji əhəmiyyət qazanır. Bu səbəbdən bir çox dövlət pilotsuz texnologiyalara yatırılan investisiyaları milli təhlükəsizliyin əsas elementi kimi qiymətləndirir.

Müasir müharibələrin ən mühüm xüsusiyyətlərindən biri də budur ki, pilotsuz sistemlər təkbaşına fəaliyyət göstərmir. Onlar peyk rabitəsi, süni intellekt, elektron müharibə vasitələri, kibertəhlükəsizlik sistemləri və yüksək sürətli informasiya şəbəkələri ilə birlikdə vahid hərbi ekosistem yaradır. Məhz buna görə də bir çox ekspert hesab edir ki, XXI əsrdə üstünlüyü yalnız güclü silaha malik dövlət yox, texnologiyanı daha sürətlə inkişaf etdirən, innovasiyaları operativ şəkildə tətbiq edən və məlumat üstünlüyünü təmin edən dövlət qazanacaq.

Müasir müharibələr göstərir ki, pilotsuz sistemlər artıq ayrıca silah növü deyil, bütün hərbi əməliyyatların əsas əlaqələndirici elementidir. Əvvəllər pilotsuz aparatların əsas vəzifəsi düşmənin mövqelərini müşahidə etmək idisə, bu gün onlar kəşfiyyat, zərbə, elektron müharibə, rabitə, logistika və hətta psixoloji əməliyyatların keçirilməsində eyni vaxtda istifadə olunur. Bu səbəbdən hərbi ekspertlər pilotsuz sistemləri XXI əsrin "gözləri və qulaqları" adlandırırlar.

ABŞ-ın tanınmış təhlükəsizlik eksperti, "Wired for War" kitabının müəllifi Peter W. Singer hesab edir ki, robotlaşdırılmış sistemlər müharibələrin mahiyyətini dəyişdirən ən mühüm texnoloji inqilablardan biridir. Onun fikrincə, tarixdə ilk dəfədir ki, insan döyüş meydanından min kilometrlərlə uzaqda ola-ola müharibəni idarə edə bilir. Bu, yalnız yeni silah növünün yaranması deyil, həm də müharibə psixologiyasının dəyişməsi deməkdir. Müasir komandirlər artıq döyüş meydanını xəritədən yox, pilotsuz aparatların fasiləsiz ötürdüyü görüntülər vasitəsilə real vaxt rejimində izləyirlər. Bunun nəticəsində qərar qəbuletmə prosesi əvvəlki dövrlərlə müqayisədə dəfələrlə sürətlənib.

Peter Singer daha bir vacib məqama diqqət çəkir. Onun fikrincə, gələcəyin müharibələrində üstünlük silahların sayına yox, məlumatın toplanması və emalı sürətinə bağlı olacaq. Döyüş meydanında ilk görən, ilk analiz edən və ilk qərar qəbul edən tərəf üstünlük qazanacaq. Buna görə də pilotsuz sistemlər sadəcə zərbə vasitəsi deyil, informasiya üstünlüyü yaradan strateji texnologiyadır.



## Müharibənin yeni üzü: pilotsuz sistemlər dövrü başlayır

Britaniyalı hərb tarixçisi Lawrence Freedman da bu qənaətdədir ki, müasir müharibələrdə əsas dəyişiklik silahların özündə yox, onların vahid informasiya sistemində əlaqələndirilməsində baş verir. Onun fikrincə, tank, artilleriya, raket sistemi və pilotsuz aparat ayrı-ayrılıqda fəaliyyət göstərdikdə onların imkanları məhdud olur, lakin bütün bu vasitələr eyni informasiya şəbəkəsinə inteqrasiya edildikdə tamamilə yeni döyüş modeli formalaşır. Freedman bunu "şəbəkə əsaslı müharibə"nin yeni mərhələsi kimi qiymətləndirir. Bu yanaşma son illər Ukraynada xüsusilə aydın görünür. Müharibənin ilk mərhələsində pilotsuz sistemlər əsasən kəşfiyyat üçün istifadə olunurdusa, sonrakı dövrdə onlar artilleriya ilə birgə fəaliyyət göstərməyə başladı. Pilotsuz aparat düşmənin mövqeyini müəyyən edir, koordinatları bir neçə saniyə ərzində komanda məntəqəsinə ötürür, artilleriya isə dərhal həmin hədəfə zərbə endirir. Zərbənin nəticəsi yenidən pilotsuz aparat vasitəsilə qiymətləndirilir və zərurət yarandıqda atəş korrektə olunur. Beləliklə, əvvəllər onlarla dəqiqə sürən əməliyyat artıq bir neçə dəqiqə ərzində başa çatır.

RUSI (Royal United Services Institute) analitiklərinin fikrincə, Ukrayna müharibəsinin əsas dərslərindən biri FPV (First Person View) pilotsuz aparatların döyüş taktikasının kökündən dəyişdirilməsidir. Bu aparatların operatoru xüsusi eynək vasitəsilə pilotsuz sistemin kamerasından görüntünü canlı izləyərək onu yüksək dəqiqliklə idarə edə bilir. Nəticədə əvvəllər yalnız bahalı idarəolunan raketlərlə vurula bilən hədəflər indi nisbətən ucuz pilotsuz aparatlarla məhv edilir. RUSI ekspertləri vurğulayırlar ki, bu texnologiya klassik tank hücumlarının effektivliyini əhəmiyyətli dərəcədə azaldıb.

Müharibələrin yeni mərhələsində geniş istifadə olunan digər texnologiya isə "Loitering Munition", yəni "gəzən sursat" adlandırılan kamikadze pilotsuz aparatlarıdır. Bu sistem adi raketdən fərqli olaraq hədəf ərazisində müəyyən müddət dövrə vuraraq ən uyğun anı gözləyə bilir. Hədəf aşkar olunandan sonra aparat özü həmin obyektə istiqamətlənərək onu məhv edir. Bu xüsusiyyət pilotsuz sistemlərə həm kəşfiyyat, həm də zərbə funksiyasını eyni platformada birləşdirmək imkanı verir.

ABŞ-ın RAND Corporation analitikləri hesab edirlər ki, gələcəkdə bahalı döyüş platformalarının sayı azalacaq, onların yerini minlərlə kiçik və ucuz pilotsuz aparat tutacaq. RAND ekspertlərinin fikrincə, müasir döyüş meydanında bir neçə yüz milyon dollarlıq döyüş təyyarəsini itirmək böyük strateji itki hesab olunur, lakin minlərlə aşağı qiymətli pilotsuz aparatın müəyyən qisminin sıradan çıxması ümumi əməliyyatın nəticəsinə ciddi təsir göstərmir. Buna görə də müdafiə sənayesində artıq "kütləvi ağıllı sistemlər" konsepsiyası formalaşır.

Bu yanaşmanın praktik nümunəsi kimi ABŞ Müdafiə Nazirliyinin "Replicator Initiative" proqramını göstərmək olar. Proqramın əsas məqsədi qısa müddət ərzində minlərlə pilotsuz aparat istehsal etmək və onları süni intellekt vasitəsilə koordinasiya olunan vahid sistemdə birləşdirməkdir. Pentaqon hesab edir ki, gələcəkdə çoxsaylı pilotsuz platformalar rəqibin hava hücumundan müdafiə sistemlərini yükləyəcək, bahalı hərbi aktivləri tükəndirəcək və əsas zərbə vasitələri üçün əlverişli şərait yaradacaq.

Müasir hərbi nəzəriyyədə son illərin ən çox müzakirə olunan anlayışlarından biri "Drone Swarm", yəni pilotsuz aparat sürüsü konsepsiyasıdır. Bu modeldə onlarla, hətta yüzlərlə uçan aparat eyni vaxtda vahid alqoritm əsasında fəaliyyət göstərir. Onlar öz aralarında məlumat mübadiləsi aparır, hədəfləri bölüşdürür, məhv edilmiş aparatların funksiyalarını avtomatik şəkildə öz üzərinə götürür. Ən mühüm xüsusiyyət isə ondan ibarətdir ki, bu proseslərin böyük hissəsi insan müdaxiləsi olmadan həyata keçirilir. ABŞ, Çin və Böyük Britaniya hazırda bu istiqamətdə ən intensiv tədqiqat aparan dövlətlər sırasındadır.

Pekin isə pilotsuz sistemlərin inkişafına fərqli yanaşır. Çin hərbi nəzəriyyəsində geniş istifadə olunan "İntellektləşdirilmiş müharibə" (Intelligentized Warfare) konsepsiyası süni intellektin yalnız pilotsuz aparatların yox, bütün silahlı qüvvələrin idarə edilməsində əsas rol oynayacağını nəzərdə tutur. Çin strateqləri hesab edirlər ki, gələcəyin döyüş meydanında üstünlüyü daha çox əsgəri olan tərəf yox, süni intellekti daha səmərəli tətbiq edən tərəf qazanacaq. Bu məqsədlə Pekin süni intellekt, kvant rabitəsi, yüksək məhsuldarlıqlı mikroçiplər və avtonom idarəetmə sistemlərinə milyardlarla dollar investisiya yatırır.

Son illər pilotsuz sistemlərin inkişafına diqqət yönəldən ölkələrdən biri də Türkiyədir. Bayraktar TB2, Anka, Akıncı və Kızılelma layihələri göstərdi ki, düzgün dövlət siyasəti, güclü mühəndis məktəbi və özəl sektorun əməkdaşlığı nəticəsində qısa müddətdə rəqabətqabiliyyətli müdafiə sənayesi yaratmaq mümkündür. "The Economist" yazır ki, Türkiyə artıq yalnız pilotsuz aparat istehsal edən ölkə deyil, eyni zamanda bu texnologiyanın taktiki tətbiqi sahəsində də yeni yanaşmalar formalaşdıran dövlətlərdən birinə çevrilib.

Lakin pilotsuz sistemlərin inkişafı yeni imkanlarla birgə yeni risklər də yaradır. CSIS və Foreign Affairs analitikləri qeyd edirlər ki, müasir müharibələrdə pilotsuz aparatlarla yanaşı, onlara qarşı mübarizə vasitələri də sürətlə inkişaf edir. Elektron müharibə sistemləri radio siqnallarını bloklayır, GPS rabitəsini pozur, bəzi hallarda isə pilotsuz aparatların idarəetməsini ələ keçirə bilir. Bu səbəbdən gələcəyin müharibələri təkcə pilotsuz sistemlərin yox, elektron müharibə vasitələrinin də rəqabəti şəraitində aparılacaq. Məhz bu səbəbdən bir çox ekspert yazır ki, XXI əsrin döyüş meydanında üstünlük yalnız daha çox pilotsuz aparata malik olmaqla yox, onları qoruyan, idarə edən və digər silah sistemləri ilə əlaqələndirən texnologiyalara yiyələnməklə müəyyənləşdiriləcək.

**Süni intellekt, beynəlxalq hüquq və gələcək müharibələr**

Pilotsuz sistemlərin sürətli inkişafı müasir müharibələrin taktikasını dəyişdirməklə yanaşı, beynəlxalq təhlükəsizlik sisteminin gələcəyi ilə bağlı tamamilə yeni suallar da meydana çıxarır. Əgər XX əsrdə dövlətlərin əsas narahatlığı nüvə silahının yayılması sarıdan idisə, XXI əsrdə süni intellektlə idarə olunan avtonom silah sistemləri, pilotsuz platformaların kütləvi istehsalı və onların qeyri-dövlət aktorlarının əlinə keçməsi beynəlxalq gündəliyin əsas mövzularından birinə çevrilib. Bu gün dünyanın aparıcı analitik mərkəzlərinin ekspertləri hesab edirlər ki, pilotsuz sistemlərin gələcək inkişafı təkcə hərbi yox, həm də siyasi, hüquqi, iqtisadi və etik nəticələr doğuracaq.

ABŞ-ın nüfuzlu Center for Strategic and International Studies (CSIS) analitiklərinin rəyincə, gələcəyin orduları insan və maşının birgə fəaliyyət göstərdiyi hibrid hərbi model əsasında qurulacaq. Bu modeldə süni intellekt böyük həcmdə məlumatı saniyələr ərzində emal edəcək, müxtəlif mənbələrdən daxil olan kəşfiyyat məlumatlarını təhlil edəcək və komandirlərə optimal qərar variantları təqdim edəcək. Lakin son qərarın insan tərəfindən qəbul olunması prinsipi qorunmalıdır. CSIS ekspertlərinin fikrincə, tam avtonom öldürücü sistemlərin geniş yayılması nəzarət edilmədiyi təqdirdə beynəlxalq təhlükəsizlik üçün ciddi risklər yarada bilər.

Müasir hərbi texnologiyaların inkişafı ilə bağlı ən çox müzakirə olunan məsələlərdən biri də süni intellektin döyüş meydanında müstəqil qərar qəbul etməsidir. Bu gün bir sıra pilotsuz sistemlər hədəfi avtomatik aşkar edə, təhlükə səviyyəsini qiymətləndirə və operatorun minimum müdaxiləsi ilə zərbə endirə bilir. Texnologiyanın inkişafı göstərir ki, yaxın gələcəkdə bu imkanlar daha da genişlənəcək. Məhz buna görə beynəlxalq ekspertlər insan nəzarətinin hansı həddə qədər saxlanmalı olduğu barədə ciddi müzakirələr aparırlar. Bir çox mütəxəssis hesab edir ki, ölümcül qüvvənin tətbiqi ilə bağlı son qərarın mütləq insan tərəfindən verilməsi beynəlxalq humanitar hüququn əsas prinsiplərindən biri olaraq qalmalıdır.

Bu məsələyə münasibət bildirən britaniyalı hərbi tarixçi Lawrence Freedman qeyd edir ki, texnologiya nə qədər inkişaf etsə də, müharibənin siyasi məsuliyyəti dəyişmir. Onun fikrincə, süni intellekt daha sürətli hesablamalar apara bilər, lakin müharibənin başlanmasına və ya dayandırılmasına görə məsuliyyət yenə də siyasi rəhbərlərin üzərində qalacaq. Freedman vurğulayır ki, texnologiyanın inkişafı dövlətlərin qərar qəbuletmə məsuliyyətini azaltmır, əksinə, onu daha da artırır.

ABŞ-ın tanınmış analitiki Peter W. Singer isə hesab edir ki, gələcəkdə dövlətlər arasında rəqabət yalnız silahların sayı ilə deyil, alqoritmlərin keyfiyyəti ilə ölçüləcək. Onun fikrincə, süni intellekt sistemlərini daha sürətli hazırlayan, onları hərbi strukturlara daha çevik inteqrasiya edən və proqram təminatı sahəsində üstünlük qazanan dövlətlər strateji üstünlük qazanacaqlar. Singer bunu "alqoritmlərin geosiyasəti" adlandırır və bildirir ki, XXI əsrdə proqram kodu bəzən raketdən daha böyük strateji əhəmiyyət daşıya bilər.

Son illər NATO da pilotsuz sistemlərin inkişafını öz strateji konsepsiyalarında prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib. Alyansın qəbul etdiyi yeni sənədlərdə pilotsuz uçuş aparatları, süni intellekt, böyük verilənlər, kosmik müşahidə sistemləri və kibertəhlükəsizlik gələcəyin kollektiv müdafiə mexanizmlərinin əsas komponentləri kimi qiymətləndirilir. NATO ekspertləri hesab edirlər ki, gələcək münaqişələrdə qələbə yalnız döyüş meydanında yox, informasiya məkanında, kibərməkanda və kosmosda da qazanılacaq.

Beynəlxalq təhlükəsizlik üzrə tədqiqatlarla məşğul olan SIPRI analitikləri diqqəti başqa bir problemə yönəldirlər. Onların fikrincə, pilotsuz sistemlərin istehsal xərclərinin azalması bu texnologiyaların daha geniş yayılmasına səbəb olur. Bu isə bir tərəfdən dövlətlərin müdafiə imkanlarını artırsa da, digər tərəfdən terror təşkilatlarının, transmilli cinayətkar qrupların və digər qeyri-dövlət aktorlarının da bu texnologiyalara çıxışını asanlaşdırır. Son illər Yaxın Şərqdə müxtəlif silahlı qrupların kommersiya məqsədilə istehsal olunan pilotsuz aparatları döyüş şəraitinə uyğunlaşdıraraq istifadə etməsi bunun real nümunələrindən biridir.

Bu tendensiya beynəlxalq hüququn da qarşısında yeni və mürəkkəb problemlər yaradır. Hazırda qüvvədə olan beynəlxalq humanitar hüquq normaları əsasən insan tərəfindən idarə olunan silah sistemləri nəzərə alınmaqla hazırlanıb. Lakin avtonom pilotsuz sistemlərin yayılması ilə yeni hüquqi suallar meydana çıxır: Süni intellektin qəbul etdiyi yanlış qərara görə hüquqi məsuliyyət kimin boynuna düşəcək? Avtonom sistem mülki obyektə zərbə endirəndə cavabdehlik proqram təminatını hazırlayan şirkətin, operatorun, yoxsa həmin sistemi tətbiq edən dövlətin üzərinə düşəcək? Bu kimi məsələlər hələ də beynəlxalq hüquqda tam həllini tapmayıb.

Məhz buna görə BMT çərçivəsində bir neçə ildir Ölümcül Avtonom Silah Sistemləri (Lethal Autonomous Weapons Systems - LAWS) ilə bağlı xüsusi ekspert qrupları fəaliyyət göstərir. Burada aparılan müzakirələrin əsas məqsədi süni intellekt əsaslı silah sistemlərinin tətbiqinə dair ümumi beynəlxalq prinsiplərin müəyyənləşdirilməsidir. Bir sıra dövlət tam avtonom öldürücü sistemlərin qadağan olunmasını təklif etsə də, digərləri texnoloji inkişafın qarşısının alınmasını mümkün saymayıb onların istifadəsinin hüquqi çərçivəyə salınmasını daha məqsədəuyğun hesab edir.

"Foreign Affairs" jurnalında dərc olunan analitik məqalələrdə qeyd olunur ki, yaxın onilliklərdə texnologiya uğrunda rəqabət böyük dövlətlər arasında geosiyasi mübarizənin əsas istiqamətlərindən birinə çevriləcək. ABŞ və Çin arasında mikroçiplər, süni intellekt, kvant texnologiyaları və yüksək məhsuldarlıqlı hesablama sistemləri sahəsində müşahidə olunan rəqabət artıq klassik iqtisadi mübarizə deyil, milli təhlükəsizlik məsələsi kimi qiymətləndirilir. Bu isə göstərir ki, gələcəyin hərbi üstünlüyü təkcə silah zavodlarında yox, universitetlərdə, elmi-tədqiqat institutlarında və yüksək texnologiya şirkətlərində formalaşacaq.

Müasir müharibələrdən əldə olunan təcrübə bir mühüm nəticəni də ortaya qoyur. Artıq dövlətlərin müdafiə qabiliyyəti yalnız hərbi büdcənin həcmi ilə qiymətləndirilmir. Elmi tədqiqatlara ayrılan vəsait, mühəndis hazırlığı, proqram təminatı sahəsində milli potensial, mikroelektronika sənayesinin inkişafı, kibertəhlükəsizlik infrastrukturu və innovasiya mühiti də milli təhlükəsizliyin ayrılmaz elementlərinə çevrilir. Başqa sözlə, XXI əsrin silahlanma yarışı əvvəlki dövrlərdən fərqli olaraq laboratoriyalarda, universitetlərdə və texnologiya şirkətlərində aparılır.

Beləliklə, pilotsuz uçuş aparatları, avtonom silah sistemləri və süni intellekt texnologiyaları XXI əsrdə hərbi sahədə baş vermiş ən fundamental texnoloji transformasiyanı formalaşdırıb. Lakin texnologiyanın özü nə təhlükə, nə də təhlükəsizlik mənbəyidir. Onun bəşəriyyət üçün hansı nəticələr doğuracağını müəyyən edən əsas amil həmin texnologiyanın hansı hüquqi normalar çərçivəsində, hansı siyasi məsuliyyət prinsipləri əsasında və hansı etik meyarlarla tətbiq edilməsidir. Məhz buna görə də beynəlxalq ictimaiyyət süni intellekt və avtonom silah sistemlərinin inkişaf tempindən geri qalmamalı, onların istifadəsini tənzimləyən beynəlxalq hüquqi mexanizmləri vaxtında formalaşdırmalıdır. Fikrimizcə, mövcud beynəlxalq humanitar hüquq normaları müasir texnologiyaların inkişaf sürəti ilə müqayisədə artıq yeni hüquqi yanaşmalar tələb edir. Avtonom silah sistemlərinin tətbiqi zamanı məsuliyyətin müəyyənləşdirilməsi, insan nəzarətinin minimum həddi, mülki əhalinin qorunması, alqoritmik qərarların hüquqi qiymətləndirilməsi və dövlətlərin beynəlxalq məsuliyyəti kimi məsələlər gələcəkdə beynəlxalq hüququn ən aktual istiqamətlərindən birinə çevriləcək. Bu baxımdan BMT, regional təşkilatlar və aparıcı dövlətlər yalnız texnoloji üstünlük uğrunda yox, həm də beynəlxalq hüququn yeni texnoloji reallıqlara uyğunlaşdırılması istiqamətində ortaq mövqe formalaşdırmalıdır. Gələcəyin təhlükəsizlik sistemi yalnız silah balansı üzərində yox, hüququn aliliyi, beynəlxalq əməkdaşlıq, etik məsuliyyət və elmi inkişaf arasında qorunan tarazlıq üzərində qurulmalıdır. Yoxsa süni intellekt texnologiyalarının nəzarətsiz inkişafı silahlanma yarışını daha da sürətləndirə, regional münaqişələrin qlobal təhlükəsizlik böhranına çevrilməsi riskini artıra bilər. Artıq hər kəsə məlumdur ki, XXI əsrdə dövlətlərin milli gücü hərbi büdcənin həcmi, ordunun şəxsi heyəti və ya silah arsenalının miqdarı ilə ölçülməyəcək, milli təhlükəsizliyin əsas göstəricilərinə elmi potensial, innovasiya ekosistemi, süni intellekt sahəsində tədqiqatlar, yüksək texnologiyalı sənaye, kibertəhlükəsizlik infrastrukturu, mikroelektronika istehsalı və yüksək ixtisaslı insan kapitalı da daxil olacaq. Gələcəyin geosiyasi nizamını daha çox tanka, raketə və ya pilotsuz uçuş aparatına malik dövlətlər yox, elmi bilikləri milli inkişaf strategiyasının mərkəzinə yerləşdirən, süni intellekt və rəqəmsal texnologiyalar üzərində hüquqi, etik və institusional nəzarət mexanizmləri quran, innovasiyanı milli təhlükəsizlik siyasəti ilə uzlaşdıra bilən ölkələr formalaşdıracaq. Məhz hüquqla texnologiya arasında tarazlığın qorunması XXI əsrin beynəlxalq təhlükəsizlik arxitekturasının əsas prinsiplərindən biri olacaq, gələcək dünya nizamının sabitliyi də böyük ölçüdə bu tarazlığın necə təmin edilməsindən asılı olacaq.



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





# Zolaqlar arxasında gizlənən güc...

**Pələnglər yırtıcı heyvanlar arasında ən heyranedici, həmçinin təhlükəli canlılardan hesab olunur. Onlar pişiklər fəsiləsinin ən iri nümayəndələri sırasında yer alırlar. Özünəməxsus zolaqlı görünüşə malik olan bu vəhşi pişiklər gücü, çevikliyi və yüksək sürəti ilə seçilir. Narıncı rəngli xəzlərinin üzərindəki qara zolaqlar isə pələngləri digər heyvanlardan fərqləndirən əsas xüsusiyyətlərdən biridir. Hər bir pələngin zolaq naxışı fərqli olduğundan, onları bu xüsusiyyətə görə bir-birindən ayırmaq mümkündür. Fiziki qüvvələri, həm də səssiz ov etmə bacarıqları ilə vəhşi təbiətin ən təsirli yırtıcıları hesab edilir.**

**Dünyada təbii mühitdə yaşayan pələnglərin 80 faizi Hindistan yarımadasının payına düşür. 100 il əvvələ qədər Hindistanda, Türkiyədə, Çində, demək olar ki, bütün Asiya qitəsində yaşayan pələnglərə hazırda keçmiş ərazilərinin 93 faizində ümumiyyətlə, rast gəlinmir. Hazırda dünya təbiətində bir neçə min pələng yaşayır. Böyük pişiklər arasında bəbirdən başqa yalnız pələng yaxşı üzgüçüdür.**

**Yeri gəlmişkən, bu gün Beynəlxalq Pələnglər Günüdür. Əlamətdar günün qeyd olunmasında məqsəd ictimaiyyətin diqqətini bu heyvanların nəslinin kəsilməsinə və mühafizəsi probleminə cəlb etmək və əhalini məlumatlandırmaqdır. Beynəlxalq Pələnglər Günü 2010-cu ildə Sankt-Peterburqda 13 dövlətin hökumət başçılarının iştirakı ilə pələnglərin qorunması məsələləri üzrə keçirilən beynəlxalq forumda təsis edilib.**

## Pələnglər haqqında maraqlı faktlar

### Sayları getdikcə azalır...

Təəssüf ki, vəhşi təbiətdə bu heyvanların sayı son yüzillikdə getdikcə azalır. Dünya Vəhşi Təbiət Fondunun məlumatına görə, XX əsrin əvvəllərində Yer üzündə təxminən 100 min pələng yaşayıb. 2014-cü ildə onların sayı 3 minədək azalıb və azalmaqda davam edir. Heyvanlar öz təbii yaşayış mühitinin 93 faizini itirib.

Bundan başqa, qeyri-leqal ticarət məqsədilə pələnglərin ovlanması onların sayının azalmasına səbəb olub. Bu heyvanlar bir sıra bölgələrdə - Yava və Bali adalarında (1960-1980-ci illərdə), Cənubi Qafqazda (1930-cu illərdə), Orta Asiyada (1960-cı illərdə) tamamilə məhv edilib. Hazırda təbiətin bu nadir canlılarının doqquz tanınmış yarımnövündən yalnız altısı qalıb.

XX əsrdə pələngin adı "itən növ" kimi Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Kitabı"na, Rusiyanın, eləcə də digər ölkələrin mühafizə sənədlərinə daxil edilib.

### Bioloji quruluş

Pələnglər iri, güclü bədən quruluşuna malikdirlər. Onların bədən uzunluğu 2,5-3 metrə, çəkisi isə 150-300 kiloqrama çatır. Əzələli və çevik bədənləri onlara ovlarını yaxından izləmək və sürətli hücum etmək imkanı verir. Pələnglərin narıncı tükləri üzərində qara zolaqlar onların təbii mühitdə görünməməsini təmin edir. Onların güclü əzələləri və iti dişləri ovlarını tezliklə öldürmək üçün adaptasiya olunub. Gecəgörmə qabiliyyəti yüksəkdir və uzun quyruqları balanslarını qorumağa kömək edir.

### Fərdi xarakter əlamətlərinə malikdirlər

Hər bir pələngin zolaqları fərqlidir və bu, təkcə kamuflyaj funksiyasını yerinə yetirmir, həm də fərdlərin identifikasiyasında kömək edir. Bir neçə il öncə aparılan tədqiqat göstərib ki, vəhşi təbiətdə əzəmətli yırtıcı heyvanlar olan pələnglər bizim yumşaq tüklü ev heyvanlarımız kimi fərdi xarakter əlamətlərinə malikdir. Gedişatında 248 Sibir pələnginin davranışı müşahidə olunan araşdırma bu nəsli kəsilən canlıların unikal xarakterik xüsusiyyətlərə malik olduğunu göstərib. Bu keyfiyyətlər heyvanların sağ qalmaq və çoxalmaq qabiliyyətinə təsir edir.

Tədqiqatın nəticələri pələnglərin sadəcə monolit növ deyil, daha çox öz fərqli xarakter xüsusiyyətlərinə malik olduğu faktını vurğulayır.

### Əzəmət və müvazinət xüsusiyyəti

Alimlər Çində yarıazad şəraitdə saxlanılan iki pələng populyasiyasında əminlik, səmimilik, davakarlıq və vəhşilik kimi əlamətlərin öyrənilməsi üçün insan şəxsiyyət testini uyğunlaşdırıblar. Hər gün pələnglərlə işləyən baytarlar və heyvan baxıcıları 70 şəxsiyyət göstəricisindən ibarət siyahı ilə anketləri doldurublar. Nəticələr göstərib ki, hər iki pələng populyasiyası şəxsiyyət kateqoriyasına aid olan əzəmət və müvazinət kimi xüsusiyyətlərə malikdir.

"Əzəmətə" görə ən çox bal toplayan pələnglər, daha sağlam, diri heyvanları ovlamağa çox meyilli idilər, daha çox qida qəbul edir və cütləşirdilər.

Digər tərəfdən, "sabit" pələnglər daha mülayim, səmimi və sevməyə qadir sayılıb. Maraqlıdır ki, alimlər erkək və dişi pələnglər arasında o qədər də çox fərq aşkar etməyib. Bundan başqa, ata-pələnglərin valideyn vəzifələrinin yerinə yetirilməsinə köməklik etdikləri müşahidə olunub.

Bu gün bir çox ölkədə, o cümlədən Azərbaycanda, heyvanların sirklərdə istifadəsi məhdudlaşdırılıb və ya qadağan olunub. Heyvan hüquqları müdafiəçiləri zooparkların və təbii mühitin pələnglərin qorunması üçün daha münasib olduğunu vurğulayırlar. Beynəlxalq və yerli səviyyədə pələnglərin qorunması üçün müxtəlif layihələr və proqramlar həyata keçirilir. Zooparklar və heyvan bağları pələnglərin qorunmasında mühüm rol oynayır. Azərbaycanda pələnglər artıq təbii halda yaşamasa da, onların tarixi və mədəni rolu qorunmaqdadır.

*Yeganə BAYRAMOVA*

# Alimlər: Holosen dövründə insanlar on minlərlə dildə danışıblar

Hazırda insanlar qlobal miqyasda təxminən 7500 dildən istifadə edirlər. Bunlardan ən çox yayılanlar ingilis, Çin, hind, ispan, ərəb və fransız dilləridir. Bu, çoxlu dil deməkdir. Lakin tarixən ən yüksək rəqəmdən çox uzaqdır.

AZƏRTAC "Reuters" agentliyinə istinadla xəbər verir ki, dillərin tarixi ilə bağlı uzun illər tədqiqat aparan alimlər bu qənaətə gəliblər.

Tədqiqatçılar təxminən 12000 il əvvəl, Buz dövrünün sonuna qədər olan və Holosen dövrünü əhatə edən qlobal miqyasda istifadə olunan dillərin sayını təxmin etmək üçün riyazi modelləşdirmə, antropologiya, dilçilik və demoqrafiyadan əldə olunan məlumatlardan istifadə ediblər. Onlar bəşəriyyətin on minlərlə fərqli dildə danışa biləcəyi eramızdan əvvəl birinci minillik və eramızın birinci minilliklərini əhatə edən dövrü müəyyən ediblər.

Alimlər, həmçinin həmin linqvistik "qızıl dövr"dən bəri ciddi geriləmənin olduğunu qeyd ediblər. Bu, qədim dövrlərdə böyük imperiyaların genişlənməsi və son bir neçə əsrdə Avropa müstəmləkəçiliyi kimi amillərin təsiri altında dillərin dəyişdirilməsi ilə əlaqədardır.

Konnektikutdakı Yel Universitetinin dilçilik və antropologiya professoru, "Science" jurnalında dərc olunmuş tədqiqatın rəhbəri Kler Bouern bildirib: "Dillər insanların yaşadıqları icmalar üçün dərin məna daşıyır, bilik, assosiasiya və xatirələri ehtiva edir. Onlar keçmiş haqqında, insanların harada yaşadıqlarını tutmuş nə ilə qidalanmalarına və nədən danışdıqlarına qədər alimlər üçün çoxlu məlumat daşıyır. Dillər, həmçinin insan zehninə bir pəncərə açır".

İbtidai icma dövründən bəri bir çox dil ailəsi yaranıb və təkamül edib, yazılı dil isə əvvəlcə Mesopotamiyada - mixi yazı ilə yazılmış şumer dilində eramızdan əvvəl IV minillikdə, sonralar Misir, Çin və Mezoamerika kimi yerlərdə ayrı-ayrılıqda ortaya çıxıb.





"Biz bir neçə min il əvvələ qədər bəşəriyyətin bu gün bildiyimizdən daha müxtəlif mədəni dünyada yaşadığını nadir hallarda qiymətləndiririk", -deyə tədqiqatın aparıcı müəllifi, İspaniyadakı Katalan İnstitutunun antropoloqu Demien Blasi bildirib.

Tədqiqatçılar qeyd ediblər ki, çox yaxın vaxtlara qədər dil saylarına dair birbaşa dəlil olmayıb. Antik dövrdən qalma son dərəcə qeyri-müəyyən qeydlərə etibar etmək mümkün deyil. Lakin dillər və cəmiyyətlər arasındakı əlaqələr haqqında çoxlu məlumat zamanla dilin müxtəlifliyinin simulyasiya modelini yaratmaq üçün bir neçə fərziyyədən istifadə etməyə imkan verir.

Alimlər Holosen dövrünün əvvəlinə yaxın hər biri ayrı-ayrı dilləri təmsil edən etnolinqvistik qrupların ölçüsünü qiymətləndirmək məqsədilə Afrika, Cənubi Amerika və Cənub-Şərqi Asiyada mövcud olan 171 ovçu-yığıcı icmasını əhatə edən məlumatlardan istifadə ediblər. Onlar bu prosesdə həmin dövrdəki əhali sayının hesablamaları ilə müqayisə aparıblar.

Qeyd olunub ki, insanlar dünyanın hər yerində kiçik qruplar halında səpələnmiş halda, köçəri ovçu-yığıcı icmalarında yaşayırdılar, amma əkinçiliyin başlanması, daimi yaşayış məskənlərinin və daha mürəkkəb mədəniyyətlərin yaranması ilə vəziyyət dəyişib. Tədqiqatçılar təxminən 12000 il əvvəl səpələnmiş əhalinin təxminən 4500 ilə 6200 dildə danışdığını təxmin edirlər. Sonrakı minilliklərdə qlobal miqyasda əhali tədricən artdıqca və insan cəmiyyəti dəyişdikcə, dillərin sayı da çoxalıb. Çoxsaylı böyük və kiçik dillər yaranıb və şoradan yox olub. Bu nümunələrə şumer, hett, akkad və etrusk, qədim Misirdə və Çində istifadə edilən müxtəlif dillər daxildir.

Alimlər bildiriblər ki, qədim dillər yenilərinə çevrilə bilər. Belə ki, qədim Romanın dili olan latınca Qərbi Roma İmperiyasının eramızın 476-cı ildə süqutundan sonrakı əsrlərdə fransızca, italyanca və ispanca da daxil olmaqla müxtəlif dillərə çevrilib.

Müstəmləkə gücləri tez-tez linqvistik imperializm qaydaları tətbiq edib. Məsələn, İngiltərə İrlandiyada irland dilinə qarşı sərt tədbirlər görürdü, İspaniya Amerikada, Portuqaliya isə Braziliyada yerli dilləri qadağan edirdi. Digər nümunələrə Fransanın Afrika koloniyalarında fransız dilini təyin etməsi və Yaponiyanın Koreyada yerli dili sıxışdırması daxildir. Bəzi dillər tarixin bu sınaqlarından çıxa bilib. Məsələn, ink, mayya və astek dilləri ispanların sıxışdırma səylərinə rəğmən günümüzə qədər gəlib çatıb.

Alimlərin qənaətinə görə, bu gün istifadə olunan dillərin təxminən yarısı yox olmağa yaxındır. Belə ki, planetimizin əhalisinin 90 faizi dünya dillərinin 10 faizində danışır. Bu səbəbdən dillərin sıradan çıxması prosesi davam edir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4515**
**Sifariş: 958**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova